

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

22 noyabr 2025-ci il, şənbə
№ 213 (7040)
Qiymәti 60 qəpik


## İlham Əliyev: Biz regional əməkdaşlıq vasitəsilə ortaq informasiya platformalarının yaradılmasını dəstəkləyirik

Bax səh. 2

## Azərbaycan-ABŞ münasibətlərini gələcəyə daşıyacaq yeni strateji imkanlar...



Bax səh. 2

## Sosial dövlətin təminatı

### 2026-cı ilin dövlət büdcəsinin xərclərinin 41 faizi sosialyönümlüdür

Bax səh. 4




## Üç qitə bir arada...

D-8-də Azərbaycana göstərilən böyük etimad

Bax səh. 3

## Ötən il Bakıda, bu il Belemdə...

COP 29 və COP30 bir-birindən nə ilə fərqləndi?

Bax səh. 3



## 2024-cü il aprel razılaşmasının ardı olaraq...

Bax səh. 5

### "Müasir Azərbaycanın inkişafında Yeni Azərbaycan Partiyasının rolu"

Bax səh. 5

### Ədalət işığında...

Bax səh. 6

### Azərbaycanın beynəlxalq inteqrasiya modeli!

Bax səh. 6

### "TexnoInnovasiya Fondu" nə üçün lazımdır?

Bax səh. 6




## Fransa ilə Rusiya arasında uran mübadiləsi gizli şəkildə davam edir

Bax səh. 7

## Rusiya - Ukrayna müharibəsində yeni perspektivlər



Bax səh. 7

# İlham Əliyev: Biz regional əməkdaşlıq vasitəsilə ortaq informasiya platformalarının yaradılmasını dəstəkləyirik

## “Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi” mövzusunda D-8 Media Forumunun iştirakçılarına



Hörmətli Forum iştirakçıları,

İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) ilk Media Forumunda Sizi səmimi-qəlbdən salamlayıram. Bu Forumun Azərbaycanın təşəbbüsü ilə birinci dəfə Bakı şəhərində keçirilməsi mühüm hadisədir.

Bildiyiniz kimi keçən il Azərbaycan Respublikası yekdilliklə D-8 təşkilatının üzvü seçilmişdir. Əlamətdar haldır ki, otuz ilə yaxın müddət ərzində fəaliyyət göstərən bu təşkilat ilk dəfə olaraq genişlənmə ilə əlaqədar qərar qəbul etmişdir. Bu, ölkəmizə olan beynəlxalq etimadın göstəricisi, təşkilata üzv olan hər bir ölkə ilə möhkəm dostluq və əməkdaşlıq münasibətlərimizin, birliyimizin və həmrəyliyimizin təzahürü idi. 1,2 milyard əhalini əhatə edən və böyük iqtisadi potensiala malik D-8 təşkilatına üzv olan dövlətlər ortaq dini-mədəni dəyərləri bölüşürlər. Bu gün artıq üç qitəni əhatə edən D-8 platforması dayanıqlı iqtisadi artım, rəqəmsal transformasiya, süni intellekt, qlobal iqlim dəyişmələri ilə mübarizə və enerji təhlükəsizliyi kimi mühüm sahələrdə inkişafı irəli aparmaq üçün geniş imkanlara malikdir. Azərbaycan enerji, nəqliyyat və kommunikasiya sahələrində D-8 ölkələri ilə çoxşaxəli tərəfdaşlıqlar qurmaqla regional və beynəlxalq əməkdaşlığın mühüm iştirakçısına çevrilmişdir.

Azərbaycan D-8 ailəsinin üzvü olduğu gündən təsisatın inkişafı ilə bağlı səylər göstərir. Bu, təkcə iqtisadi deyil, həm də mədəni, sosial və humanitar əməkdaşlıq sahələrində özünü büruzə verir. Azərbaycanın D-8-ə üzvlüyə qəbul edilməsindən ötən bir ilə yaxın müddət ərzində ölkəmizin təşəbbüsü ilə Bakı şəhərində D-8 ölkələrinin QHT-lərinin ilk dəfə görüşü təşkil olunmuş, D-8 Həftəsi çərçivəsində “D-8 Yüksəksəviyyəli İqlim və Şəhərsalma Dialoq”u baş tutmuşdur. Azərbaycan bundan sonra da təsisat çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsinə öz töhfəsini verməyə davam edəcəkdir.

Dost ölkələrin ictimai-siyasi xadimlərini, kommunikasiya üzrə mütəxəssislərini, media nümayəndələrini bir yerə toplayan bu Forumun qlobal informasiya məkanında meydana çıxan yeni çağırışları müzakirə etmək və ortaq məqsədlərə çatmaq üçün səmərəli platforma olacağına inamımı ifadə edirəm. Qlobal böhranlar, bəşəriyyət qarşısında duran yeni sınaqlar və çətinliklər dövründə ölkələrimizin bir-birinə qarşılıqlı dəstək göstərməsi, o cümlədən media sahəsində həmrəyliyi nümayiş etdirməsi olduqca vacibdir.

Müasir dünyada informasiya adi xəbər olmaqla məhdudlaşmır, beynəlxalq münasibətlərin, ictimai rəyin və iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilərək xalqlar arasında etimadın və anlayışın formalaşmasında mühüm rol oynayır.

Hazırda media mühiti sürətli transformasiyaya məruz qalır. Təəssüflər olsun ki, qlobal informasiya məkanında dezinformasiya, saxta xəbərlər, hibrid təhdidlər, “deepfake”lər, süni intellektin imkanlarından sui-istifadə və digər manipulyasiya halları dayanmadan artmaqdadır. Bu amillər ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərməklə yanaşı, bütövlükdə beynəlxalq sabitliyə zərbə vurur və ölkələr arasında etimadı sarsıdır. Bu səbəbdən D-8 Media Forumunun əsas vəzifələrindən biri - doğru, qərəzsiz, obyektiv və məsuliyyətli informasiya mühitinin qurulması üçün üzv ölkələrin media qurumları arasında etibarlı əməkdaşlığın formalaşdırılmasıdır.

Azərbaycan media sahəsində bir sıra mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir, bu istiqamətdə daim mühüm təşəbbüslərlə çıxış edir. Biz milli media strategiyamızı beynəlxalq təcrübə ilə uzlaşdıraraq, jurnalistlərin peşəkarlığının artırılmasına, faktlara əsaslanan xəbərlərin yayılmasına və media savadlılığının inkişafına xüsusi diqqət yetiririk. Eyni zamanda, biz regional əməkdaşlıq vasitəsilə ortaq informasiya platformalarının yaradılmasını dəstəkləyirik.

Bugünkü Forum dost ölkələrin media qurumları arasında qarşılıqlı təcrübə mübadiləsi üçün əlverişli imkanlar yaradan yeni əməkdaşlıq müstəvisidir. İnanıram ki, burada səslənəcək ideyalar, təkliflər və irəli sürüləcək birgə layihə təşəbbüsləri gələcəkdə D-8 ölkələrinin informasiya siyasətində mühüm rol oynayacaqdır.

D-8 Media Forumunun xalqlarımız arasında əməkdaşlıq, qarşılıqlı etimad və həmrəyliyin möhkəmlənməsinə, informasiya təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verəcəyinə ümidvar olduğumu bildirir, forumun işinə uğurlar diləyirəm.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının**
**Prezidenti,**
**Bakı şəhəri, 21 noyabr 2025-ci il**

# Azərbaycan-ABŞ münasibətlərini gələcəyə daşıyacaq yeni strateji imkanlar...

## Qarşılıqlı maraqlar, real geosiyasi vəziyyət, iqtisadi inteqrasiya, təhlükəsizlik əməkdaşlığı və qlobal proseslərdə birgə fəaliyyət...

Donald Trampın yenidən hakimiyyətə qayıdışı beynəlxalq münasibətlər sistemində çoxvektorlu dəyişikliklərin başlanğıcını qoyduğu kimi, Azərbaycan-ABŞ əlaqələrində də yeni mərhələnin əsasını formalaşdırdı. Vaşinqtonun son aylarda Bakıya yönələn mesajlarında, yüksək səviyyəli dialoqlarda və regional təşəbbüslərə münasibətində açıq şəkildə müşahidə olunan dönüş ABŞ administrasiyasının Azərbaycanın regionda yaratdığı sabitlik modelini və sülh təşəbbüslərini yüksək qiymətləndirdiyini göstərir. Xüsusilə 2020-ci ildə əldə edilən qələbədən sonra bölgədə formalaşan yeni geosiyasi nizam, Azərbaycanın diplomatik manevr imkanları və praqmatik, ardıcıl xarici siyasət kursu ölkəmizi qlobal siyasi xəritənin aparıcı aktorlarından birinə çevirib. Bu gün Azərbaycan nəinki Cənubi Qafqazın yeni təhlükəsizlik arxitekturasının müəllifidir, həm də geniş Avrasiya məkanında enerji təhlükəsizliyi, nəqliyyat şəbəkələri, sülh prosesləri və əməkdaşlıq layihələrinin mərkəzində dayanan dövlət kimi çıxış edir.

**907-ci düzəlişin tam ləğv olunması artıq zərurətə çevrilir...**

### Vaşinqtonun Cənubi Qafqaza baxışında Azərbaycanın fərqli mövqeyi



Ötən 11 ay ərzində iki ölkə arasında məktublaşmaların intensivləşməsi, ABŞ rəsmilərinin və beyin mərkəzlərinin nümayəndələrinin, siyasət adamlarının Azərbaycana ardıcıl səfərləri, qlobal tədbirlər çərçivəsində baş tutan təmaslar Vaşinqtonun regionda yeni siyasi mərhələni qəbul etdiyini təsdiqləyir. Azərbaycan artıq təkcə strateji enerji tərəfdaşı deyil, həm də yeni beynəlxalq nizamın formalaşmasında fəal rolu olan dövlət kimi dəyərləndirilir. Vaşinqtonun Cənubi Qafqaza baxışında Azərbaycanın mövqeyi daha fərqlidir - bu isə tərəflər arasında münasibətlərin keyfiyyət baxımından da yeni mərhələyə qədəm qoyduğunu göstərir. Bakı bu gün qlobal təhlükəsizlik, yeni nəqliyyat və enerji dəhlizləri, geopolitik balansların qurulması və əməkdaşlıq platformalarının inkişafında həlledici aktor kimi qəbul olunur. Elə buna görə də Azərbaycan-ABŞ münasibətləri yalnız iki dövlət arasındakı maraqların kəsişməsi deyil, həm də qlobal miqyasda yeni siyasi dinamikanın formalaşması baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu, bir həqiqətdir ki, Prezident İlham Əliyevin son illərdə həyata keçirdiyi ardıcıl siyasət regionun təhlükəsizlik mənzərəsinə yeni və möhkəm təmələ əsaslanan ştrixlər əlavə edib - bu isə ABŞ-Azərbaycan münasibətlərində strateji yüksəliş mərhələsini başladan bir amil sayılır. ABŞ administrasiyasının, konkret Donald Trampın Azərbaycanın yüksək potensialına, Prezident İlham Əliyevin liderlik bacarığına verdiyi dəyər, Bakıya ünvanlanan və özündə strateji əməkdaşlığı ehtiva edən məktublar, Vaşinqtonun sülh prosesinə baxışındakı yeni ton onu göstərir ki, yaradılan sabitlik modeli artıq qlobal güclər tərəfindən qəbul edilmiş siyasi reallıqdır. 30 illik münaqişənin bitməsi, ərazi bütövlüyünün tam

### Bakının sülh arxitekturası münasibətləri strateji müstəviyə daşıyır

təmin olunması, Cənubi Qafqazda yeni əməkdaşlıq mühitinin qurulması və Bakının region dövlətləri arasında balans yaradan aparıcı rolu Vaşinqton üçün strateji əhəmiyyət daşıyır.

Yeri gəlmişkən, Vaşinqtonda səfərdə olan Azərbaycan parlamentinin, Xarici İşlər Nazirliyinin, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və yəhudi icmasının təmsilçilərindən ibarət nümayəndə heyətinin rəhbəri Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov da bildirib ki, avqust görüşü Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış bir hadisədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vaşinqtonda sülhün bünövrəsini, əsasını yaradaraq regionumuzu tamamilə başqa səviyyəyə yüksəltdi və Amerika-Azərbaycan münasibətləri də artıq strateji əlaqələr səviyyəsinə qalxıb.

Prezident İlham Əliyevin formalaşdırdığı yeni regional nizam, münaqişələrin dialoq yolu ilə həlli, kommunikasiyaların açılması və iqtisadi-siyasi inteqrasiyanın təşviqi Vaşinqtonun Qafqaz strategiyası ilə üst-üstə düşür. Məhz bu səbəbdən ABŞ-Azərbaycan münasibətləri indi sadəcə diplomatik təmaslardan ibarət deyil - tərəflər arasında siyasi, hərbi, enerji, logistika və təhlükəsizlik istiqamətlərində əlaqələr strateji çalar qazanıb.

### Münasibətlərdə fərqli konturlar...



Millət vəkili vurğulayıb ki, Minsk qrupunun ləğvi, 907-nin dayandırılması, bir neçə gün bundan əvvəl işçi qrupuna ABŞ-ın həmsədr təyin etməsi, ən yüksək səviyyədə məmurların Azərbaycana səfərləri, Azərbaycan-Amerika münasibətlərini müzakirə etməsi yeni tarixdir: “Bu tarixi biz Konqresdə, Senatda hiss edirik. Vaxt var idi, onlar bizimlə şəkil çəkdirmək belə, istəmirdilər. Ona görə ki, erməni lobbisi var idi. İndi də var, ancaq Azərbaycan artıq fərqli Azərbaycandır və ABŞ da fərqli ABŞ-dır. İndi görüşlərin sayı gündən-günə artır. İndi senatorlar, konqresmənlər Azərbaycana gəlmək istəyirlər və gəlirlər”.

Həqiqətən də 8 avqust görüşü yalnız regionun daxilində deyil, ABŞ-ın Cənubi Qafqaz siyasətində də yeni fəlsəfənin əsasını qoydu. Vurğulandığı kimi, son aylar ərzində yüksək səviyyəli məmurların Bakıya səfərlərinin intensivləşməsi, Vaşinqtonun aparıcı beyin mərkəzlərinin Azərbaycanda regional təhlükəsizlik və enerji məsələlərini müzakirə etməsi, ABŞ Konqresində Azərbaycanla bağlı yanaşmanın dəyişməsi münasibətlərdə yeni siyasi formatın formalaşdığını təsdiqləyir. Əvvəllər Vaşinqton bölgəyə daha çox vasitəçi mövqeyi ilə yanaşırdısa, indi Azərbaycanla bərabərhüquqlu strateji tərəfdaşlıq müstəvisində əməkdaşlıq modelinə keçid müşahidə olunur. Bu, həm də onu göstərir ki, ABŞ Cənubi Qafqazda sabitliyi təmin edən yeganə real güc kimi məhz Azərbaycanın rolunu qəbul edib.

### 907-ci düzəliş və erməni lobbisi ABŞ-ın maraqlarına qarşıdırlar

S.Seyidov bildirib ki, Azərbaycan güclüdür və haqq, ədalət yolunun ən yüksək səviyyədə təbliğatçısıdır: “Biz istəyirik ki, ABŞ Konqresi və Senat 907-ci düzəlişi müzakirə edərək birdəfəlik aradan qaldırsın. Biz istəyirik ki, Azərbaycanla bağlı hələ də hər hansı təşəbbüsləri irəli sürüb, ümumi sülh məsələlərini zəhərləmək istiqamətində çalışan erməni lobbisi artıq başa düşsün ki, onlar bizə qarşı yox, ABŞ-ın maraqlarına qarşı işləyirlər. Bunu artıq Amerikanın ən yüksək səviyyəli dairələrində başa düşürlər”.

Qeyd edək ki, rəsmi Vaşinqtonun Azərbaycana dövlət yardımı göstərməsini qadağan edən bu düzəliş ilk dəfə 1992-ci ildə senator Con Makkeyn tərəfindən təklif edilmişdi. Sonradan isə senator Con Kerrinin və erməni lobbi təşkilatlarının dəstəyi ilə konqresmen Ueyn Ouens (Yuta ştatı) tərəfindən Konqresdə irəli sürüldü və erməni lobbi təşkilatlarının güclü təzyiqi nəticəsində Konqres tərəfindən qəbul edildi. 11 sentyabr 2001-ci ildə terror aktından sonra Konqres prezidentə düzəlişi ləğv etmək hüququ verən qanun qəbul etdi. Cozef Baydenin ABŞ prezidenti seçilməsinin ardından isə rəsmi Vaşinqtonun Azərbaycana dövlət yardımı göstərməsini qadağan edən bu düzəliş ləğv edilmədi.

Bu ilin avqustunda Prezident İlham Əliyevin Vaşinqtona səfəri zamanı Azərbaycan-ABŞ münasibətlərinin inkişafı istiqamətində atılan mühüm addımlardan biri də ABŞ Prezidentinin Azadlığa Dəstək Aktına 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə sərəncam imzalanması oldu. Azərbaycan-ABŞ münasibətlərində keçmişin mənfi mirası olan 907-ci düzəlişin tətbiqinin Tramp tərəfindən məhz Prezident İlham Əliyevlə görüş çərçivəsində dayandırılması əhəmiyyətli rəmzi məna daşıdı, ABŞ-ın Azərbaycanla əlaqələrin inkişafına verdiyi önəmin təcəssümünə çevrildi. Beləliklə, 907-ci düzəlişin dayandırılması uzun illər Vaşinqtonun siyasi arsenalında qalan iradə baryerinin aradan qaldırılması deməkdir. ABŞ-ın bu addımı onu göstərir ki, Vaşinqton Azərbaycanla əməkdaşlıqda siyasi təzyiq alətlərini deyil, qarşılıqlı maraq və reallığa əsaslanan yanaşmanı seçib.

### İctimai müzakirələr münasibətləri daha da dərinləşdirir...



ABŞ ictimaiyyəti də Azərbaycan ilə münasibətlərin yeni müstəviyə qədəm qoymasını yüksək dəyərləndirir. ABŞ-ın Hudson İnstitutunda səfərdə olan Azərbaycan parlamentinin, Xarici İşlər Nazirliyinin, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və yəhudi icmasının təmsilçilərindən ibarət nümayəndə heyəti ilə dəyirmi masa keçirilib. Dəyirmi masada, həmçinin ABŞ beyin mərkəzlərinin təmsilçiləri də iştirak ediblər. Tədbirdə çıxış edən mərkəzin direktoru Mayk Doran Bakının prioritetlərinin ABŞ-ın maraqlarına uyğun olduğunu deyib. Doran bildirib ki, Azərbaycan həm də Mərkəzi Asiya dövlətləri üçün Avropaya açılan qapıdır. Azərbaycanın bu istiqamətdə rolu barədə daha çox danışılmalıdır.

Azərbaycanın nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib ki, artıq regionda yeni reallıqlar formalaşıb və Azərbaycan suverenliyini və ərazi bütövlüyünü bərpa etməklə yeni tarixi səhifə açıb. O, avqustun 8-də Azərbaycan, ABŞ və Ermənistan liderləri arasında Vaşinqtonda keçirilən üçtərəfli görüşün böyük bir tarixi fürsət yaratdığını deyib.

Digər çıxış edən natiqlər də ikitərəfli münasibətlərdə irəliləyiş əldə etmək üçün danışıqların aparılmasının zərurətindən, 907-ci düzəlişin tam olaraq ləğv olunmasından söhbət açıblar. Bundan başqa, Azərbaycanın region ölkələri, o cümlədən Türkiyə ilə müttəfiqlik əlaqələri, Mərkəzi Asiya ilə əlaqələrin inkişafında rolu, TRIPP layihəsi və regionun iqtisadi potensialının gücləndirilməsi üçün atılan addımlar, ABŞ-la münasibətlər istiqamətində müzakirələr aparılıb.

Nəticə etibarı ilə, Azərbaycan-ABŞ münasibətlərində müşahidə olunan yeni dinamikalar göstərir ki, tərəflər arasında əməkdaşlıq keyfiyyətcə fərqli mərhələyə daxil olub. Azərbaycan-ABŞ münasibətləri artıq yeni strateji doktrinanın konturlarını müəyyənləşdirir. Bu doktrina qarşılıqlı maraqlar, real geosiyasi vəziyyət, iqtisadi inteqrasiya, təhlükəsizlik əməkdaşlığı və qlobal proseslərdə birgə fəaliyyət xəttinə əsaslanır.

***P.İSMAYILOV***

# Üç qitə bir arada...

## D-8-də Azərbaycana göstərilən böyük etimad

Müstəqil Azərbaycan çoxvektorlu xarici siyasət kursuna malikdir. O cümlədən respublikamız müxtəlif regional və qlobal platformalarda uğurla təmsil olunur. Azərbaycanı fərqləndirən əsas cəhətlərdən biri ondan ibarətdir ki, ölkəmiz sıralarına qatıldığı beynəlxalq təşkilatların fəaliyyətinə davamlı töhfələr verir və onların nüfuzunun, funksionallığının artmasında mühüm rol oynayır.

Azərbaycanın sıralarında yüksək fəallıq göstərdiyi beynəlxalq qurumlardan biri də D-8 İqtisadi Əməkdaşlıq Təşkilatıdır. Respublikamız bu təşkilatda təmsil olunduğu qısa müddətdə bir sıra uğurlara imza atıb. Dünən Bakıda D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin media sahəsinə məsul qurumlarının və aparıcı media subyektlərinin rəhbərlərinin, digər yüksəkvəzifəli nümayəndələrin və sahə üzrə tanınmış ekspertlərin iştirakı ilə “Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi” mövzusunda D-8 Media Forumunun keçirilməsi ölkəmizin qurumun fəaliyyətinin genişlənməsinə verdiyi növbəti töhfədir.




Bakıda keçirilən forum çərçivəsində D-8 Media Mükəmməllik Mərkəzinin (D-8 Media Excellence Center) təqdimatı keçirilib. Təqdimatı Medianın İnkişafı Agentliyinin Beynəlxalq Əlaqələr və Sənəd dövriyyəsi Departamentinin direktoru Rasim Bağırov D-8 Media Forumu çərçivəsində edib.

Təqdimat zamanı R.Bağırov qeyd edib ki, D-8 Media Mükəmməllik Mərkəzinin yaradılması təşəbbüsü birliyin yeni üzvü kimi Azərbaycan tərəfindən irəli sürülüb.

### D-8 Media Mükəmməllik Mərkəzinin təqdimatı...

Onun sözlərinə görə, mərkəzin məqsədi səkkiz ölkə arasında media əməkdaşlığının gücləndirilməsi, regional və qlobal proseslərin koordinasiyalı şəkildə işıqlandırılması, jurnalistlərin peşəkar səviyyəsinin artırılması və dezinformasiya ilə səmərəli mübarizədir.

Mərkəzin konsepsiyası ilk dəfə 2025-ci il mayın 16-da təqdim edilib, daha sonra İstanbulda D-8 Komissiyasının 49-cu iclasında müzakirə olunub. Bundan sonra milli koordinatorların onlayn formatda iki iclası keçirilib və burada iştirakçı ölkələrin şərhləri və təklifləri nəzərə alınıb. Toplanmış materiallar əsasında Mərkəzin nizamnaməsi hazırlanır və cari media forumunun nəticələri struktur fəaliyyətə başladıqdan sonra ikiillik Fəaliyyət Planına daxil ediləcək.

O məlumat verib ki, Mərkəzin strukturu bütün iştirakçı ölkələrdən milli koordinatorları əhatə edəcək. Onlar Məsləhət Şurası (ACNC) ilə birlikdə strategiya və fəaliyyət istiqamətlərini müəyyən edəcəklər. Əməliyyatlara icraçı direktor rəhbərlik edəcək. Azərbaycan təşəbbüsün müəllifi kimi əməkdaşlıq xərclərini öz üzərinə götürəcək, digər ölkələr isə ayrı-ayrı təşəbbüsləri dəstəkləyə və ya xarici maliyyələşdirmə cəlb edə biləcəklər.

D-8 Media Mükəmməlliyi Mərkəzinin əsas fəaliyyət istiqamətlərinə informasiya mübadiləsi və birgə media layihələri, ixtisasartırma proqramları və təlimlər; analitik tədqiqatlar və nəşrlər; strateji tərəfdaşlıqlar; peşəkar və məsuliyyətli jurnalistikanın dəstəklənməsi; dezinformasiya ilə mübarizə; media sahəsində innovativ texnologiyaların tətbiqi yer alır.

R.Bağırov vurğulayıb ki, forum iştirakçıları platformanın gələcək inkişafının formalaşdırılmasında fəal şəkildə iştirak edir və təqdim olunan bütün təkliflər növbəti iki il üçün Fəaliyyət Planının hazırlanmasında nəzərə alınacaq.

*Mübariz FEYİZLİ*




### İslam səkkizliyi platforması

D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı səkkiz müsəlman ölkəsini birləşdirir. Təşkilatın təməli Türkiyənin təşəbbüsü ilə 1996-cı il oktyabrın 22-də İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın əməkdaşlığı ilə təşkil edilən İnkişaf Əməkdaşlıq Konfransında qoyulub. 1997-ci il iyunun 15-də İstanbulda 8 ölkənin dövlət və hökumət başçılarının sammitində təşkilat rəsmən elan olunub. Katibliyi İstanbul şəhərində yerləşir. Üç qitəni əhatə edən, 4 trilyon ABŞ dollardan artıq ÜDM-ə malik, 130 milyard dollar həcmində ticarət dövriyyəsi həyata keçirən, üzvlərinin əhalisinin sayının, ümumilikdə, dünya müsəlmanlarının 60 faizini təşkil edən qurum dünyada İslam səkkizliyi kimi tanınır. İslam səkkizliyinin fəaliyyəti münaqişələr əvəzinə sülh, mübahisələr əvəzinə dialoq, ikili standartlar əvəzinə hüquq bərabərliyi, istismar əvəzinə kooperasiyalar, ikili standartlar əvəzinə hüquq, zülm əvəzinə demokratiya, diskriminasiya əvəzinə hüquqi bərabərlik kimi prinsiplərə əsaslanır.

D-8 ölkələri yeni çağırışlar fonunda əməkdaşlığı daha da dərinləşdirməyi hədəfləyiblər. Bu məqsəd qəbul olunan qərarlarda da öz əksini tapıb. Təşkilatın dövlət və hökumət başçılarının X sammitində “2020-2030 D-8 10 illik Yol Xəritəsi” adlı sənəd qəbul edilib. Bu sənəd təşkilatın güclənməsi və inkişafını hədəfləyir. Sənəd 2020-2022-ci, 2023-2027-ci və 2028-2030-cu illəri əhatə etməklə üç mərhələli inkişaf strategiyasını nəzərdə tutur. Dünyadakı yeni reallıqlara və çağırışlara uyğun islahatların aparılması İslam səkkizliyinin qarşısına bir vəzifə kimi qoyulub. Prezident İlham Əliyev “Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi” mövzusunda D-8 Media Forumunun iştirakçılarına ünvanladığı məktubunda qurumun kifayət qədər geniş potensiala malik olduğuna diqqət çəkərək vurğulayıb: “1,2 milyard əhalini əhatə edən və böyük iqtisadi potensiala malik D-8 təşkilatına üzv olan dövlətlər ortaq dini-mədəni dəyərləri bölüşürlər. Bu gün artıq üç qitəni əhatə edən D-8 platforması dayanıqlı iqtisadi artım, rəqəmsal transformasiya, süni intellekt, qlobal iqlim dəyişmələri ilə mübarizə və enerji təhlükəsizliyi kimi mühüm sahələrdə inkişafı irəli aparmaq üçün geniş imkanlara malikdir”.

### D-8-də ilk genişlənmə

Yeni şəraitdə təşkilatın genişlənməsinə də ciddi ehtiyac yaranıb. 2024-cü il dekabrın 19-da D-8-in tarixində əlamətdar hadisə - qurumun ilk genişlənməsi baş verdi. Belə ki, qeyd olunan tarixdə Misirin paytaxtı Qahirə şəhərində təşkilatın XI Sammiti zamanı Azərbaycan yekdilliklə D - 8-in üzvü seçilib. Xatırladaq ki, ölkəmiz təşkilatda ilk dəfə Prezident İlham Əliyevin xüsusi qonaq qismində iştirak etdiyi 2017-ci ildə İstanbulda keçirilmiş IX Zirvə görüşündə təmsil olunub.

D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı yaranandan bəri ona qoşulan ilk ölkənin Azərbaycan olması məmnunluq doğurur. Çox doğru olaraq bu qərar üzv ölkələr tərəfindən Azərbaycana göstərilən hörmət və həmin ölkələr arasında böyük dostluğun nümunəsi kimi qiymətləndirilir. D-8 ölkələri ilə Azərbaycanın qarşılıqlı milli maraqlara əsaslanan səmərəli konstruktiv ikitərəfli münasibətləri mövcuddur. O cümlədən Azərbaycan D-8 ailəsinin üzvü olduğu gündən təsisatın inkişafı ilə bağlı səylər göstərir. Qeyd edək ki, bu, təkcə iqtisadi deyil, həm də mədəni, sosial və humanitar əməkdaşlıq sahələrində özünü büruzə verir. “Azərbaycanın D-8-ə üzvlüyə qəbul edilməsindən ötən bir ilə yaxın müddət ərzində ölkəmizin təşəbbüsü ilə Bakı şəhərində D-8 ölkələrinin QHT-lərinin ilk dəfə görüşü təşkil olunmuş, D-8 Həftəsi çərçivəsində “D-8 Yüksəksəviyyəli İqlim və Şəhərsalma Dialoq”u baş tutmuşdur. Azərbaycan bundan sonra da təsisat çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsinə öz töhfəsini verməyə davam edəcəkdir”, - deyə Prezident İlham Əliyev müraciətində vurğulayıb.

# Ötən il Bakıda, bu il Belemdə...

## COP 29 və COP30 bir-birindən nə ilə fərqləndi?

**Ötən ilin noyabr ayında BMT-nin ən böyük tədbirlərindən biri sayılan qlobal iqlim konfransı -COP29 Bakının ev sahibliyi ilə baş tutdu. Bu il isə qlobal iqlim konfransı COP30 Braziliyanın Belem şəhərində keçirilib. İstər-istəməz müqayisə aparmaq lazım gəlir: Azərbaycanın və Braziliyanın ev sahibliyi ilə keçirilən COP29 və COP30 ayrı-ayrılıqda nə ilə yadda qalıb?**

### Azərbaycanın nümunəvi təşkilatçılığı




COP-a ev sahibliyi bir qayda olaraq BMT-nin beş regional qrupu arasında rotasiya edilir. Hər regional qrup üzvlərindən bu konfransı təşkil edəcək bir ölkəni irəli sürmək üçün konsensusla qərar qəbul etməlidir. 2024-cü ildə COP29-a ev sahibliyi etmək növbəsi Şərqi Avropa regional qrupuna çatıb. Sözügedən qrupa daxil olan ölkəmiz konfransın Azərbaycanda keçirilməsini təklif edib. Azərbaycanla yanaşı, Ermənistan və Bolqarıstan da öz namizədliklərini irəli sürüblər. Nəticədə isə ölkəmizin namizədliyi təsdiqlənib.

COP29-a ev sahibliyi hüququnun Azərbaycana verilməsi ölkəmizə və onun Liderinə beynəlxalq səviyyədə bəslənilən böyük etimadın göstəricisidir. Respublikamız Prezident İlham Əliyevin qə-

tiyyətli siyasi iadəsinə uyğun olaraq qlobal həmrəyliyin güclənməsini hədələyən ardıcıl siyasət həyata keçirir ki, bu da dünyada təqdirlə qarşılanır.

Respublikamızın COP29-a hazırlaşmaq üçün cəmi bir il vaxtı var idi. Məsuliyyətli dövlət olan Azərbaycan tədbirə yüksək səviyyədə hazırlıqlar gördü və uğurla keçən tədbir ölkəmizin liderlik keyfiyyətlərini bir daha dünyanın diqqətinə çatdırdı. Tədbirdə iştirak etmək üçün 76 mindən çox iştirakçı qeydiyyatdan keçib, həmçinin 80 dövlət və hökumət başçısı Bakıya təşrif gətirib. İştirakçı-

ların böyük hissəsi, yəni 57 min 160 nəfər əcnəbilər olublar. COP29 çərçivəsində Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammiti təşkil olunub.

Bakıda baş tutan iqlim konfransında bir sıra uğurlu nəticələr əldə olunub. Bu sırada aşağıdakıları xüsusi olaraq qeyd etmək mümkündür:

- Hər il inkişaf etməkdə olan ölkələrə 1,3 trilyon dollar iqlim maliyyəsini yönəltməyi nəzərdə tutan yeni öhdəlik olan Bakı Maliyyə Məqsədi (BMG) barədə razılığın əldə olunması. Bakı Maliyyə Məqsədi, inkişaf etmiş ölkələrin 2035-ci ilə qədər inkişaf etməkdə olan dövlətlər üçün hər il ən azı 300 milyard dollar məbləğində vəsaitin səfərbər olunmasına rəhbərlik etməsini nəzərdə tutan əsas hədəfləri müəyyənləşdirir. Xatırladaq ki, bu göstərici əvvəllər 100 milyard dollar olub.

- 2015-ci ildən bəri ilk dəfə olaraq COP29-da Paris Sazişinin 6-cı maddəsi tam şəkildə işlək vəziyyətə gətirildi. 6-cı maddə ilə bağlı yekdilliklə qəbul edilən qərarlar ətraf mühitin bütövlüyünü, şəffaflığı və karbon bazarlarının möhkəmliyini təmin etməkdə mühüm rol oynayacaq. Digər tərəfdən, 6-cı maddə üzrə əməkdaşlıq emissiyaların azaldılmasını tənzimləyə biləcək.

- 2022-ci ildə təşəbbüs kimi irəli sürülmüş və iqlim dəyişmələrinin təsirlərinə ən çox məruz qalan ölkələrə maliyyə yardımını nəzərdə tutan İtki və Zərər Fondunun tam şəkildə institutlaşdırılması. İtki və Zərər Fonduna ölkələr tərəfindən vəd edilən maliyyə vəsaitinin həcmi 730 milyon dollardan çoxdur.

- Qlobal Adaptasiya Hədəfi sənədi ilə Bakı Adaptasiya Yol Xəritəsinin yaradılması. Bu, inkişaf etməkdə olan ölkələrin maraqlarına uyğun olaraq, adaptasiya məsələsinin hər il COP-larda müzakirə olunmasını təmin edəcək.

- COP29-un qərarı ilə 10 illik Yenilənmiş Gender üzrə Lima İş Proqramı qəbul edildi. Proqramın qəbulu üzrə danışıqlar uzun müddət idi ki, davam edirdi və COP29 Sədrliyi nəticəsində sənəd üzrə razılıq bu iqlim sammiti çərçivəsində əldə olundu.

Beləliklə, deyə bilərik ki, Azərbaycan COP29-un təcrübəsi və mirası ilə gələcək iqlim konfransları üçün nümunəvi presedent yaradıb. COP29-un “Bakı sıçrayışı” adlandırılması burada bir çox hədəflərə çatılması ilə bağlıdır.

Gözləmək olardı ki, Bakının ev sahibliyi etdiyi COP29-un təcrübəsi öyrəniləcək və Braziliyada daha yüksək səviyyəli tədbir keçiriləcək. Ancaq bu baş vermədi. COP30-un davam etdiyi müddətdə bir sıra problemlər yaşandı. Fərq ilk növbədə tədbirə daha az sayda yüksəksəviyyəli iştirakçıların qatılmasında idi. Bir sıra ölkələr COP30-u baykot etmişdi. Təşkilatçılıqla da bağlı hər şey yüksək səviyyədə deyildi. Xüsusilə də pərakəndəlik, kordinasiyanın zəif olması diqqət çəkməyə bilməzdi. Təşkilat komitələrin

### COP30-da yaşanan ciddi problemlər

tez-tez dəyişməsi, Amazon siyasəti ilə bağlı daxili ziddiyyətlər, gündəliyin qeyri-müəyyənliyi, məruzələrin gecikməsi və bu kimi digər amillər tədbirin səmərəliliyinə ciddi kölgə salıb. İqlim maliyyələşməsi ilə bağlı konkret nəticəyə gəlinməməsi isə heç şübhəsiz ki, COP30-un ən pis irisi sayıla bilər.

COP30-un son günü də, yumşaq desək, başağrısı ilə yadda qalıb. Belə ki, baş verən yanğın ciddi narahatlıq yaradıb. Milli medianın məlumatına görə, yanğın sam-



mitdə iştirak edən ölkələrin və beynəlxalq təşkilatların tribunalarının yerləşdiyi “Mavi Zona”da başlayıb və təcili qaydada təxliyyə tədbirləri görülüb.

*MÜBARİZ*



# Milli Məclisin iclasında...

# Gələn ilin büdcə zərfinə daxil olan məsələlərin müzakirəsi davam etdirilib

*Nardar BAYRAMLI*

Noyabrın 21-də Milli Məclisin növbəti iclası keçirilib. İclasda 2026-cı ilin büdcə zərfinə daxil olan məsələlərin müzakirəsi davam etdirilib. Spiker Sahibə Qafarova bu məsələlər haqqında məlumat verib.

İlk olaraq, iclasda Vergi Məcəlləsinə və əlavə 16 qanuna dəyişikliklər müzakirəyə çıxarılıb. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov dəyişikliklərin mahiyyətini açıqlayıb.

Onun sözlərinə görə, Vergi Məcəlləsinə və əlavə 16 qanunvericilik aktına dəyişikliklər edilməsini nəzərdə tutan layihə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında geniş müzakirə olunub. Aidiyyəti qurumlar tərəfindən əhatəli təqdimatlar edilib. Komitə üzvləri layihəni dəstəkləməklə yanaşı, gələcəkdə vergi siyasətinin təkmilləşdirilməsinə dair dəyərli fikirlər və təkliflər səsləndiriblər.

Komitə sədri deyib ki, Vergi Məcəlləsinə dəyişikliklər 2026-cı ilin büdcə zərfinin əsas tərkib hissəsi olaraq büdcənin parametrləri ilə bilavasitə bağlıdır: “Bu dəyişikliklər biznes və vətəndaşlar üçün nə vergi yükünü artırır, nə “qeyri-stabillik yaradır”, nə də “biznesin planlaşdırılmasını çətinləşdirir”. Əksinə, yeni sahələr üzrə təşviqlərin verilməsi, vergi yığımı bazasının genişləndirilməsini nəzərdə tutur.Layihədə nəzərdə tutulan dəyişikliklər ölkənin iqtisadi inkişafını sürətləndirmək, kölgə iqtisadiyyatı ilə mübarizə tədbirlərini gücləndirmək, daxili bazarı qorumaq və idxaldan asılılığı azaltmaq, strateji sahələrə investisiyaların təşviqi və inzibatçılığın təkmilləşdirilməsi üzrə istiqamətləri nəzərdə tutur.Vergi Məcəlləsinə dəyişikliklər ilk növbədə qeyri-neft özəl sektorda əmək haqqı gəlirləri üzrə fiskal yükün tənzimlənməsi ilə bağlıdır”.

A.Əmiraslanov xatırladıb ki, 2019-cu ildən qeyri-neft sektorunun özəl bölməsində muzdla işləyən şəxslərin aylıq gəlirlərinə vergi və sosial sığorta haqları üzrə güzəşt mexanizmi tətbiq edilir. Aparılmış islahatın məqsədi sahibkarlar və işəgötürənlər üçün əlverişli vergi-investisiya mühitinin yaradılması, işçi sayının və əmək haqqının əhəmiyyətli leqallaşması olub. İslahatlar nəticəsində qeyri-neft və qaz sektorunun özəl bölməsi üzrə əmək müqavilələrinin sayında 2 dəfəyədək, əmək haqqı fondunda 2 dəfədən çox artımlar əldə edilib.2026-cı ildə güzəşt dövrü başa çatır və gəlir vergisi 2500 manatadək gəlirlər üzrə 14 faiz, 2500 manatdan artıq gəlirlər üzrə isə 25 faiz tətbiq olunmalıdır. Ancaq Vergi Məcəlləsinə təklif olunan dəyişikliklər 2019-cu ildən əvvəlki vergi dərəcələrinin olduğu kimi yenidən bərpasını deyil yeni güzəştli rejimin tətbiqini nəzərdə tutur. Belə ki, 2500 manatadək gəliri olan şəxslər üzrə gəlir vergisi 14 faiz əvəzinə 2026-cı ildə 3 faiz, 2027-ci ildə 5 faiz, 2028-ci ildən isə 7 faiz dərəcə ilə tətbiq ediləcək. Nəticədə bu region ölkələri arasında ən aşağı göstərici olacaq. Bu addım sahibkarlara və işçilərə yeni vergi qaydalarına rahat uyğunlaşmağa kömək edəcək.

Qeyd edilib ki, layihədə işğaldan azad edilmiş ərazilər üzrə müəyyən edilmiş vergitutma rejiminin eynilə Naxçıvan Muxtar Respublikasına da şamil edilməsi nəzərdə tutulur. Belə ki, 2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azadetmə tətbiq ediləcək. Bu dəyişikliyin məqsədi Muxtar Respublikada iqtisadi fəallığın artırılması, investisiyaların cəlbi, məşğulluq səviyyəsinin və rifahın yüksəldilməsidir.Dəyişikliyə əsasən həm də Muxtar Respublikada sığortaedənlər tərəfindən işçilərə görə ödənilən məcburi dövlət sosial sığorta haqlarının subsidiyalaşdırılması təklif edilir.

Komitə sədri deyib ki, kölgə iqtisadiyyatının miqyasının böyük olduğu fəaliyyət sahələrində dövriyyələrin şəffaflaşdırılması, nağdsız əməliyyatların stimullaşdırılması və bu sahədə vətəndaşların birbaşa iştirakını təmin etmək məqsədilə “ƏDV gerial” mexanizminin tətbiqi dairəsinin genişləndirilməsi nəzərdə tutulur. 2025-ci ildən etibarən dövlət-özəl tərəfdaşlıq layihələri çərçivəsində fəaliyyət göstərən özəl tərəfdaşlara və layihə şirkətlərinə, gəlir, mənfəət, torpaq və əmlak vergiləri, həmçinin idxalda ƏDV və gömrük güzəştləri verilib. İndi isə layihənin üçüncü tərəfi hesab olunan dövlət-özəl tərəfdaşlığı müqaviləsi çərçivəsində özəl tərəfdaş və ya layihə şirkətinin tikinti işlərinə cəlb etdiyi podratçılara idxalda ƏDV və gömrük güzəştlərinin şamil edilməsi təklif olunur.

“Təqdim olunan paket iqtisadi fəallığın artırılmasını, kölgə iqtisadiyyatının daralmasını, vergi-büdcə sistemində sadəliyi və şəffaflığı, daxili istehsalın və ixracın stimullaşdırılmasını təmin edəcək”,-deyə komitə sədri vurğulayıb.

Müzakirələr zamanı çıxış edən millət vəkili Tahir Mirkişili bildirib ki, hazırda Orta Dəhlizin inkişafı, Zəngəzur dəhlizinin açılması fonunda Naxçıvana tətbiq olunan vergi güzəştləri yalnız iqtisadi deyil, ciddi strateji və geo-iqtisadi məsələdir: “Hətta təklif edərdim ki, bu güzəştlər müddətli yox, müddətsiz olsun”. Onun sözlərinə görə, Naxçıvan mühüm coğrafi məkanda yerləşir və Orta Dəhliz kontekstində emal sənayesi, istehsal və xidmət sahələrinin inkişafı Azərbaycan üçün vacibdir: “Sadələşdirilmiş verginin hibrid sisteminin tətbiqini də əhəmiyyətli bir innovasiya hesab edirəm. Vergi cəlb edilən dövriyyənin həcminin 200 mindən 400 minə qədər artırılması və bunun nağdsız ödənişlərlə əlaqələndirilməsi müsbət addımdır. Gələcəkdə bu limitin daha da artırılması mümkündür”.

Millət vəkili Vüqar Bayramov isə bildirib ki, əksər dövlətlərdə minimum əmək haqqı gəlir vergisindən azad olunduğunu nəzərə alaraq oxşar praktikanın Azərbaycanda da tətbiqi məqsədəuyğundur. Onun sözlərinə görə, həm dövlət, həm özəl sektorda minimum əmək haqqı alan vətəndaşlarımızın maaşları vergidən azad olunmasın sosial təminat baxımdan da məqsədəuyğundur:“Bu zaman hər iki sektorda vergidən azad olunan məbləğ 400 manat müəyyənləşə bilər. Həmin vətəndaşlarımızın maaşları yüksək olmadığı üçün əmək haqqlarının vergiyə cəlb olunması arzuolunan deyil. Bu baxımdan, həm dövlət, həm özəl sektorda minimum əmək haqqı alan vətəndaşlarımızın maaşlarının vergidən azad olunmasını təklif edirik”.

Deputat qeyd edib ki, həm dövlət, həm özəl sektorda vergidən azad olunan məbləğin minimum əmək haqqı ilə əlaqələndirilməsi nisbətən az maaş alan vətəndaşlarımızın da gəlirlərini artıra bilər: “Bu halda gəlir vergisi hesablanan vergidən azad olunan məbləğ 200 manat deyil, 400 manat ola bilər ki, bu da birbaşa maaşlara təsir göstərəcək. Bu o deməkdir ki, bu halda 2500 manatadək əmək haqqı alan vətəndaşlarımızın maaşlarında artım qeydə alına bilər”.

Müzakirələrdən sonra layihə birinci oxunuşda qəbul olunub.

Sonra iclasda Milli Məclisin və Hesablama Palatasının 2026-cı il üçün xərclər smetası haqqında qərar layihələri qəbul edilib.

# Sosial dövlətin təminatı

Azərbaycan hökumətinin əvvəlki illərdə təmin etdiyi büdcə strategiyasına uyğun olaraq növbəti ilin büdcə sənədinin əsas prioriteti yenə də sosialyönümlülüyün qorunub saxlanmasından ibarətdir. 2026-cı ildə dövlət büdcəsinin xərcləri 41,7 milyon manat nəzərdə tutulur ki, bu da 2025-ci illə müqayisədə 296 milyon manat və ya 0,7 faiz, 2024-cü ilin icrası ilə müqayisədə isə 3 milyard 990 milyon manat və ya 10,6 faiz çoxdur. Dövlət büdcəsi xərclərinin ÜDM-də xüsusi çəkisi 31,1 faiz təşkil edəcək. Növbəti ilin dövlət büdcəsi xərclərinin strukturunda cari xərclər 60,3 faiz və ya 25 milyard 161,2 milyon manat, əsaslı xərclər isə 33,8 faiz və ya 14 milyard 084,8 milyon manat, dövlət borcuna xidmətlə bağlı xərclər 5,9 faiz və ya 2 milyard 457,6 milyon manat təşkil edəcək. Cari xərclərinin 88,1 faizi qeyri neft-qaz sektoru üzrə daxilolmaların hesabına qarşılanacaq ki, bu da 2025-ci illə müqayisədə 7,1 faiz-bənd çoxdur.

Büdcənin 41,7 milyard manat xərc portfelinin 17 milyard 145,5 milyon manatı və ya 41,1 faizi birbaşa sosialyönümlü xərclərdir ki, bu da 2025-ci illə müqayisədə 213,4 milyon manat və ya 1,3 faiz, 2024-cü ilin icrası ilə müqayisədə isə 2 milyard 492,8 milyon manat və ya 17 faiz çoxdur. 2022-ci illə müqayisədə isə sosialyönümlü xərclərin çəkisi 2026-cı ildə nəzərən 5,5 milyard manat və ya 48,1 faiz artıb. Sosialyönümlü xərclərin strukturuna əməyin ödənişi fondu, ərzaq məhsullarının alınması, təqaüd və sosial müavinətlər, dərman, sarğı ləvazimatları və materiallarının alınması, icbari tibbi sığorta üzrə xərclər və digər sosial dəstək tədbirləri aiddir.

## Əməyin ödənişinə 10,2 milyard, sosial müdafiəyə 4,9 milyard manat xərclənəcək

İqtisadi təsnifata uyğun olaraq 2026-cı il dövlət büdcəsində əməyin ödənişi xərclərinə 10 milyard 247,6 milyon manat vəsait ayrılacaq ki, bu da 2025-ci illə müqayisədə 524,7 milyon manat və ya 5,4 faiz çoxdur. Sosialyönümlü xərclərin tərkibində əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən təminat xərcləri isə ,9 milyard manat vəsait nəzərdə tutulub. Bu, 2025-ci ilə nisbətən 121 milyon manat, 2024-cü ilin icra göstəricisinə nisbətən isə 722 milyon manat çoxdur. Əhalinin gəlir əldə etmək imkanlarının və rifahının yaxşılaşması, yoxsulluq səviyyəsinin azaldılması, aztəminatlı ailələrin, xüsusilə də sosial cəhətdən həssas təbəqələrin sosial müdafiəsinin gücləndirilməsi və digər sosial tədbirlərin maliyyə təminatı üçün 2026-cı ilin dövlət büdcəsinin layihəsində 2 milyar 750,9 milyon manat vəsait nəzərdə tutulub. Yaşa, əlilliyə, ailə başçısını itirməyə və digər sosial müavinətlərin və müharibə əlillərinə, ümumi səbəbdən əlilliyi olan şəxslərə, müharibə veteranlarına, şəhid ailələrinə ödənilən Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin maliyyələşdirilməsi üçün 2 milyard 144,7 milyon manat (2025-ci ilə nisbətən 201,8 milyon manat və ya 10,4 faiz çox), ünvanlı dövlət sosial yardımlarının verilməsi üçün 465 milyon manat, haqqı ödənilən ictimai işlərlə bağlı xərclər üçün 141,2 milyon manat vəsait proqnozlaşdırılıb.

Keçmiş məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsinin təmin edilməsi məqsədilə növbəti ilin dövlət büdcəsində 285 milyon manat, o cümlədən vahid aylıq müavinətin verilməsi üçün 252 milyon manat, kommunal xidmətlərin haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi üçün 17,5 milyon manat, digər tədbirlər üçün isə 15,5 milyon manat vəsait nəzərdə tutulur.

## Səhiyyə sahəsinə ayrılan vəsait 227 milyon manat çoxaldılır

Gələn ilin dövlət büdcəsindən səhiyyə xərcləri üçün 2 milyard manat vəsait ayrılacaqki, bu da 2025-ci illə müqayisədə 30,7 milyon manat və ya 1,5 faiz, 2024-cü ilin icrası ilə müqayisədə isə 195,5 milyon manat və ya 10,7 faiz çoxdur.

Səhiyyə xərcləri ümumi büdcə xərclərinin 4,9 faizini təşkil edir. Bütövlükdə gələn il icmal büdcə də daxil olmaqla, səhiyyə xərclərinə cəmi 3,7 milyard manat vəsait ayrılacaq ki, bu da 2025-ci ilə nisbətən 227 milyon manat və ya 6,4 faiz çoxdur. Səhiyyə xərcləri üçün ayrılmış vəsaitin 900 milyon manatı və ya 44,6 faizi əhalinin dövlət vəsaiti hesabına icbari tibbi sığortalanması üzrə xərclərə yönəldiləcək.

Sosialyönümlü xərclərin strukturunda mühüm yer tutan sahələrdən biri kimi təhsil və elm xərclərinə ayrılan vəsait 5,2 milyard manat nəzərdə tutulub. Bu, 2024-cü ilin icra göstəriciləri ilə müqayisədə 658 milyon manat və ya 14,3 faiz çoxdur.

**2026-cı ilin dövlət büdcəsinin xərclərinin 41 faizi sosialyönümlüdür**

## Təhsil və elm xərclərinin payı büdcədə 12 faiz təşkil edəcək

Ortamüddətli büdcə dövrü, yəni 2022-ci illə müqayisədə 2026-cı ildə təhsil və elm xərcləri 36 faiz artmış olur. Həmin xərclərin ÜDM-də xüsusi çəkisi 3,7 faiz, dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi isə 12 faiz (2025-ci illə müqayisədə 0,1 faiz-bənd çox) təşkil edəcək.

Təhsil xərc bölməsi üzrə proqnozlaşdırılan vəsaitin 2 milyard 414,8 milyon manatı və ya 48,1 faizi ümumi təhsil xərclərinə, 796,1 milyon manatı və ya 15,9 faizi ali təhsil və dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsinə, 468,2 milyon manatı və ya 9,3 faizi məktəbəqədər təhsil xərclərinə, 94,2 milyon manatı və ya 1,9 faizi orta ixtisas təhsili xərclərinə, 105,5 milyon manatı və ya 2,1 faizi peşə təhsili xərclərinə, 97,1 milyon manatı və ya 1,9 faizi məktəbdənkənar təhsil müəssisələrinin (idman məktəbləri və s.) xərclərinə, 28,2 milyon manatı və ya 0,6 faizi əlavə təhsil və tətbiqi tədqiqatlara, 1011,8 milyon manatı və ya 20,2 faizi təhsil sahəsində digər müəssisə və tədbirlərlə bağlı xərclər üçün nəzərdə tutulub. Növbəti ildə dövlət sifarişi və dövlət hesabına kadr hazırlığı üzrə təhsil alanların sayı 150 min nəfərə, təqaüd alanların sayı isə 121 min nəfərə çatacaq. Gələn il əlilliyi olan, valideyn himayəsindən məhrum olmuş, şəhid ailələri və müharibə veteranı statusu almış güzəştli kateqoriyaya aid olan 18,5 min tələbənin təhsil və təqaüd xərcləri üçün 42 milyon manat vəsait proqnozlaşdırılıb.

Əhalinin aztəminatlı təbəqəsinin ali təhsilə əlçatanlığını daha da artırmaq və ali təhsilin əhatə dairəsini genişləndirmək məqsədilə təhsil tələbə kreditinin verilməsi və təhsil sahəsində rəqabətli maliyyələşmə və idarəetmə mexanizmlərinin yaradılması və tətbiqi üçün növbəti ilin dövlət büdcəsində 15 milyon manat vəsait nəzərdə tutulmuşdur. Əvvəlki illərdə ayrılmış vəsaitlər də nəzərə alındıqda, ümumilikdə, Təhsil Tələbə Kredit Fondunun resurs zərfi 141 milyon manat təşkil edəcək.










## Sosial Müdafiə Fondunun xərcləri 8 milyard manatı ötəcək

Sosial xərclərin mühüm bir hissəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) xəttilə maliyyələşdirilir. Gələn il üçün Fondun büdcə xərclərinin 8 milyard 483 milyon 70 min manat proqnozlaşdırılır ki, bu da 2025-ci illə müqayisədə 10,5 faiz və ya 806,6 milyon manat çoxdur. “Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında” qanun layihəsinə əsasən Fondun gəlirlərinin 6 milyard 591 milyon manatının, yaxud 79,2 faizinin məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar hesabına formalaşması nəzərdə tutulub. Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların 68 faizi qeyri-büdcə sektorunun, 32 faizi isə büdcədən maliyyələşən təşkilatların hesabına təmin ediləcək.

Yeri gəlmişkən, Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsində 1 milyard 700 milyon manat vəsait transfert nəzərdə tutulub ki, bu da 2025-ci illə müqayisədə 100 milyon manat və ya 6,3 faiz çoxdur. Beləliklə, gələn il Sosial Müdafiə Fondunun büdcə xərcləri artmaqla dayanıqlı büdcə xərc təminatı formalaşacaq. Fondun xərclərinin 96,6 faizi və ya 8,2 milyard manatı əhaliyə ödənişlər təşkil edəcək ki, bu, 2025-ci illə müqayisədə isə 788 milyon manat çoxdur. Bu məbləğin 7 milyard 993 milyon manatı əmək pensiyalarının, 203,6 milyon manatı isə sosial sığorta hesabına verilən müavinət xərclərinin payına düşür. 2026-cı il üzrə əmək pensiyalarının maliyyələşdirilməsi üçün ayrılan vəsait 2025-ci ilin təsdiqlənmiş xərcləri ilə müqayisədə 782,4 milyon manat və ya 10,9 faiz artımla nəzərdə tutulub.

Əmək pensiyalarının orta aylıq məbləğinin 2026-cı ildə isə 590 manat olacağı proqnozlaşdırılır. Növbəti ildə yaşa görə pensiyanın orta aylıq məbləğinin cari ildəki 576 manatdan 53 manat artaraq 629 manata yüksəlməsi fərz edilir.

*ELBRUS CƏFƏRLİ*

YAP-33

# "Müasir Azərbaycanın inkişafında Yeni Azərbaycan Partiyasının rolu"

## Qaradağ rayonunda bu mövzuda elmi-praktik konfrans keçirilib

Bu günlərdə Qaradağ rayonunun Lökbatan qəsəbəsindəki Heydər Əliyev Mərkəzinin akt zalında Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 33-cü ildönümü ilə əlaqədar "Müasir Azərbaycanın inkişafında Yeni Azərbaycan Partiyasının rolu" mövzusunda elmi-praktik konfrans keçirilib.

Tədbirdə Qaradağ rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Eldar İbrahimov, YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev, Milli Məclisin deputatı, YAP Təftiş Komissiyasının üzvü Aydın Hüseynov, Milli Məclisin üzvü Səbinə Xasayeva, YAP Qaradağ Rayon Təşkilatı və Qaradağ Rayon İcra Hakimiyyəti Aparatının əməkdaşları, şəhid ailələrinin üzvləri, Qarabağ qaziləri, rayon ictimaiyyətinin nümayəndələri və partiya fəalları iştirak ediblər.






Əvvəlcə Heydər Əliyev Mərkəzinin binası qarşısında Ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülməklə əziz xatirəsi yad olunub.

Sonra tədbir iştirakçıları Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyətindən bəhs edən kitab sərgisi və uşaqların əl işlərindən ibarət eksponatlarla tanış olublar.

Azərbaycanın Dövlət Himni səsləndirilib, Ulu öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Yeni Azərbaycan Partiyasının yaranmasından və fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə açan YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev partiyanın 33 il ərzində keçdiyi şərəfli yol haqqında ətraflı məlumat verib. O, Ulu öndər Heydər Əliyevin fikir və düşüncələrindən, onun fəaliyyət prinsiplərindən yoğrularaq formalaşan partiyanın tarixi zərurətdən yaranmasından, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması və dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində gördüyü mühüm işlərdən geniş bəhs edib. O, partiyanın yaranmasını Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqına bəxş etdiyi töhfələrdən biri kimi yüksək qiymətləndirib. Bu siyasətin layiqli davamçısı olan Azərbaycan Prezidenti, YAP-ın Sədri İlham Əliyevin rəhbərliyi altında dövlətimizin qüdrətinin və beynəlxalq nüfuzunun daha da artdığını xüsusi vurğulayıb.Konfransda çıxış edən Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov 1992-ci ildə partiyanın yarandığı vaxt Naxçıvandakı ağır vəziyyəti təsvir edib, həmin dövr Naxçıvana Ulu öndəri görməyə gələn, onun rəbərliyi altında partiyanın yaranmasına çalışan insanların fəaliyyətlərindən dövlətçilik baxımından böyük tarixi əhəmiyyət daşıyan bir hadisə olduğunu bildirib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Eldar İbrahimov 1990-93-cü illərdə Azərbaycanda baş verən ictimai-siyasi prosesləri təhlil edib, o vaxtkı hakimiyyətlərin səriştəsiz idarəçiliyini, xalqı uçuruma aparan, vətəndaş qarşıdurması yaradan siyasətini tənqid edib. O, Ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində yaradılan Yeni Azərbaycan Partiyasının 33 il müddətində zəngin və şərəfli yol keçdiyini və bunun hər YAP üzvünün qəlbində qürur hissi doğurduğunu bildirib. YAP-ın yarandığı çətin günlər barədə xatirələrini bölüşən Eldar İbrahimov bu siyasi təşkilatın qısa zaman kəsiyində Azərbaycanın və regionun ən güclü, mütəşəkkil siyasi qüvvəsinə çevrildiyini, bu partiyanın xalqımızın milli maraqlarının ifadəçisi olduğunu qeyd edib. YAP-ın yarandığı ilk gündən xalqımızın ən fəal və mübariz nümayəndələrinin qorxmadan bu partiyanın sıralarına qoşulduğunu vurğulayan YAP İdarə Heyətinin üzvü bu partiyanın yaranmasının həm də xalqımızın mütəşəkkilliyinin və yüksək siyasi təfəkkürünün göstəricisi olduğunu deyib. O, bu gün YAP-ın öz sıralarında ölkəmizin qabaqcıl gənclərini toplayaraq yetkin siyasi qüvvəyə çevrildiyini bildirib.

Konfransda çıxış edən Milli Məclisin deputatı, YAP Təftiş Komissiyasının üzvü Aydın Hüseynov YAP-ı tarixi zərurətdən və kəskin ehtiyacdan yaranmış bir siyasi təşkilat kimi xarakterizə edərək həmin dövr və baş verən proseslər, Qaradağ rayonunda YAP-ın rayon təşkilatının yaranması istiqamətində görülmüş işlər barədə xatirələrini bölüşüb. O bildirib ki, həmin vaxt Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışının ölkəni xaosdan və özbaşınalıqdan xilas edəcəyini görən qabaqcıl Qaradağ ziyalıları Ulu öndərin rəhbərliyi ilə təsis edilən Yeni Azərbaycan Partiyasını bu yolda əsas vasitələrdən biri kimi qəbul edirdi.

Milli Məclisin üzvü Səbinə Xasayeva çıxışında YAP-ın yarandığı ilk günlərdən öz sıralarında gəncləri sıx şəkildə birləşdirməsindən və ötən dövrdə əldə edilmiş nailiyyətlərdə xalqımızın gənc nəslinin fəal iştirakından bəhs edib. O qürur hissi ilə vurğulayıb ki, onun təmsil etdiyi gənc nəsil YAP-ın bu gün YAP-ın fəaliyyətində fəal iştirak etməklə xalqımızın şanlı tarixinin ən parlaq səhifələrinin yazılmasında, 30 ildən yuxarı işğal altında olan torpaqlarımızın düşmən tapdağından azad edilməsində mühüm rol oynayıb.

Tədbirdə çıxış edən Şəhid anası Leyla Musayeva şanlı Zəfərin əldə edilməsində Ulu öndərin əsasını qoyduğu inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin mühüm rol oynadığını bildirib. O, xüsusi vurğulayıb ki, Vətən Müharibəsində şanlı Zəfər məhz xalqımızın Müzəffər Ali Baş Komandan İlham Əliyev ətrafında yumruq kimi birləşməsi, qəhrəman oğullarımızın müdrik rəhbərin əmrlərini rəşadətlə yerinə yetirməsi nəticəsində mümkün oldu. Dövlət rəhbərliyinin şəhid ailələrinə və qazilərə xüsusi diqqətlə yanaşmasına görə minnətdarlığını bildirən Leyla Musayeva qəhrəman şəhidlərimizin xatirəsinin daim yüksək tutulacağına əmin olduğunu da bildirib.

Məşhur "91-lər"in nümayəndəsi, Qaradağ rayon İcra Hakimiyyəyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Munis Bayramov çıxış edərək ötən əsrin 80-ci illərinin sonu 90-cı illərin əvvəllərində Azərbaycanın görünməmiş fəlakətlə qarşılaşdığı bir zamanda Ulu öndər Heydər Əliyevin rəhbərliyi və ölkənin qabaqcıl ziyalılarının təşəbbüsü ilə formalaşan Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli tarixi yoldan və ölkəmizin bu gün qazandığı böyük uğurlarda oynadığı mühüm roldan bəhs edib. O, böyük Zəfərin hər bir azərbaycanlının qəlbini qürur hissə ilə doldurduğunu və gələcəyə böyük inam yaratdığını xüsusi qeyd edib.

Tədbirdə çıxış edən rayon ağsaqqalı Mirtağı Tağıyev 70-80-ci illərdə Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda və keçmiş SSRİ-də həyata keçirilən böyük layihələrdən, Bakı-Tbilisi-Ceyhan Əsas Neft Boru Kəməri, Bakı-Tbilisi-Qars Dəmir Yolu kimi xətlərin əhəmiyyətindən bəhs edib.

Konfransda Qaradağ rayonunun ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup YAP üzvü Fəxri Fərmanla təltif edilib və partiya sıralarına yeni qəbul edilmiş gənclərə üzvlük vəsiqələri təqdim olunub.

# 2024-cü il aprel razılaşmasının ardı olaraq...

## 4 kəndin qaytarılması yenidən gündəmdə...

Bu ilin avqustunda Vaşinqtonda əldə edilmiş razılaşmalar, Ermənistan ilə Azərbaycan arasında sülh sazişi layihəsinin paraflanması bölgədə yeni siyasi situasiya formalaşdırır. Bu, həm də sülhə bir addım qaldığını deməyə əsas verir. Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olunub, Qarabağ "münaqişəsi" tarixə qovuşub, ATƏT-in Minsk Qrupunun ləğvi ilə bağlı prosedura rəsmən start verilib. Sülhün tam reallaşmasına "bir addım" qaldığını deməyimizə də səbəb var - Ermənistan özünün konstitusiyasında müvafiq dəyişikliklər etməklə ölkəmizə qarşı ərazi iddialarına rəsmən son verdiyini bəyan etməli, nəhayət, illərdir ki, işğal altında olan 4 anklav kəndlərimiz geri qaytarılmalıdır.

### 8 kənddən 4-ü...

Xatırladaq ki, ötən əsrin 90-cı illərində Qazax rayonunun 7 kəndi - Sofulu, Barxudarlı, Bağanis Ayrım, Qızıl Hacılı, Yuxarı Əskipara Aşağı Əskipara və Xeyrimli kəndləri Ermənistan tərəfindən işğal edilmişdi. Kərki kəndi isə Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun inzibati-ərazi vahidindədir - 1990-cu ilin yanvarında ermənilər tərəfindən işğal edilib. Hal-hazırda Ermənistanın işğalı altındadır.

2024-cü ilin aprelində Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə müvafiq Dövlət komissiyalarının səkkizinci görüşündə delimitasiya prosesinin ilkin mərhələsində sərhəd xəttinin ayrı-ayrı hissələrinin Sovet İttifaqı çərçivəsində onun süqutu dövrünə mövcud olduğu hüquqi cəhətdən əsaslandırılmış respublikalararası sərhədə uyğun olaraq Bağanis (ER) - Bağanis Ayrım (AR), Voskepar (ER) - Aşağı Əskipara (AR), Kirants (ER) - Xeyrimli (AR) və Berkaber (ER) - Qızılhacılı (AR) yaşayış məntəqələri arasında bilavasitə keçməsi razılaşdırılıb. Başqa sözlə, bu kəndlər Azərbaycana qaytarılıb.

### Əsasnaməyə görə: digər 4 kənd də qaytarılmalıdır...

Qeyd edək ki, ötən ilin avqustunda imzalanan və delimitasiya prosesində əsas mahiyyətə malik olan, istinad edilən sənədin - Dövlət komissiyalarının Birgə fəaliyyəti haqqında Əsasnamə layihəsinin razılaşdırılması da məhz həmin tarixi səkkizinci görüşə təsadüf edir. Bu razılaşmalarda bildirilirdi ki, delimitasiya prosesi 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanacaq. Bundan başqa, tərəflər Əsasnaməni təsdiq etdikdən sonra növbəliliyi razılaşdırmaq və sərhədin bütün digər hissələrinin, o cümlədən anklav və eksklav məsələləri üzrə delimitasiya prosesini davam etdirmək barədə razılığa gəlmişdilər.

Beləliklə, ümumən sülh prosesinin ən vacib elementlərindən biri olan delimitasiya və demarkasiya prosesi ədalət və beynəlxalq hüquq prinsipləri üzrə inkişaf etməlidir - Ermənistan Azərbaycanın hələ də işğal altında saxladığı kəndlərini azad etməlidir. Belə ki, Vaşinqton razılaşmalarından, sülh gündəliyinin rəsmən paraflanmasından, Zəngəzur dəhlizi (TRIPP) ətrafında mühzüm proseslərin inkişaf etməsindən sonra Qazaxın üç kəndinin - Sofulu, Bərxudarlı və Yuxarı Əskiparanın, eləcə də Naxçıvanın Kərki kəndinin qaytarılması məsələsi son dövrlərdə yenidən aktuallaşıb. Nəzərə alsaq ki, Zəngəzur dəhlizinin (TRIPP) hazırlanması və açılması məsələsi olduqca aktiv şəkildə müzakirə edilir, sərhədin bu istiqamətdə delimitasiyasının aktallaşacığını da proqnozlaşdırmaq olar. Belə olan halda isə, Kərki kəndi ilə bağlı vəziyyət gündəmə gəlir.



### Ermənistan rəsmiləri də təsdiqləyir...

Kəndlərin işğal altında saxlanması faktı isə Ermənistanın siyasi rəhbərliyi tərəfindən də təsdiq olunur. Mətbuatın yaydığı xəbərə görə, Ermənistan parlamentinin spikeri Alen Simonyan bildirib ki, Ermənistan bəzi sahələrdə ümumilikdə 110 kvadrat kilometr Azərbaycan ərazisini nəzarətdə saxlayır: "Xəritədə də göstərməyə hazıram. Təxminən 110 kvadrat kilometr biz onların ərazisindəyik, məsələn, Tavuş istiqamətində. Rəsmi olaraq deyirəm ki, hətta 90-cı illərdən bəri bizim irəlidə olduğumuz sahələr də mövcuddur".

Simonyanın sözlərinə görə, bu ərazilərin bir qismi 1990-cı illərin hərbi əməliyyatlarından sonra formalaşmış sərhəd xəttində yerləşir. İndi əsas məsələ bu ərazilərin geri qaytarılmasıdır.

Bu fikirlər erməni ictimaiyyəti tərəfindən geniş müzakirə olunur. Məsələn, politoloq Suren Surenyants Azərbaycan XİN sözçüsü Ayxan Hacızadəyə istinad edərək Qazax rayonunun üç kəndinin və Naxçıvanın Kərki kəndinin qaytarılmasının Bakının prioritet məsələlərindən biri olduğunu deyib. Onun sözlərinə görə, bu məsələ sərhəddə delimitasiya komissiyaları çərçivəsində həll edilməlidir. Azərbaycan gizlətmir ki, sülh müqaviləsi yalnız o halda mümkündür ki, Ermənistan məzmunundan asılı olmayaraq, onların bütün şərtlərini yerinə yetirsin.

Ermənistan parlamentindəki "Hayastan" fraksiyasından deputat Qarnik Danielyan isə bildirib ki, Qazaxıstandan və Rusiyadan Azərbaycan ərazisi vasitəsilə dəmir yolu ilə Ermənistana buğda idxal edilməsinə başlanması təsadüfi deyil: "Bunu Paşinyan elan etdi və dedi ki, Ermənistan ərazisində Azərbaycan torpaqları var və onlar Azərbaycana geri qaytarılmalıdır".

Qeyd olunmalıdır ki, Azərbaycan 44 günlük müharibədə qalib tərəf olsa da, qarşı tərəfə hansısa bir ərazi iddiası irəli sürməyib - Azərbaycan yalnız özünün ərazi vahidlərinə aidi olan torpaqların son qarışına qədər qaytarılmasını istəyir. Bu isə həm qalib dövlət kimi, həm beynəlxalq hüququn prinsipləri etibarı ilə, həm də ədalət nöqteyi-nəzərdən haqlı mövqedir.

### Sülh və dialoq səfərləri - bu dəfə erməni QHT nümayəndələri Bakıda

Yuxarıda da qeyd etdiyimiz kimi, artıq sülh prosesi son mərhələ qədəm qoyub - dövlətlər arasında sülh sazişinin gündəliyi təsdiqlənib, torpaqların delimitasiyası ilə bağlı proses inkişaf etdirilir, paralel olaraq Zəngəzur dəhlizinin (TRIPP) açılması istiqamətində fəal iş aparılır. Digər tərəfdən isə, cəmiyyətlər arasında normallaşmanın reallaşması yönündə də müəyyən addımlar atılır. Məsələn, qarşılıqlı olaraq vətəndaş cəmiyyəti institutlarının səfərləri reallaşdırılır ki, bu da ümumi sülh prosesinə mühüm töhfələr verir. Xatırladaq ki, bu ilin 21-22 oktyabrında Azərbaycan və Ermənistan ekspert cəmiyyətinin nümayəndələrinin birgə təşəbbüsü və hər iki ölkənin rəsmi strukturlarının dəstəyi ilə Yerevanda ikitərəfli dəyirmi masa keçirilmişdi. Dəyirmi masada Azərbaycanın və Ermənistanın bir sıra QHT nümayəndələri iştirak etmişdilər.

Yeri gəlmişkən, dünən Ermənistanın vətəndaş cəmiyyəti nümayəndələrindən ibarət qrup Azərbaycan paytaxtına səfər edib. Səfər 21-22 oktyabr 2025-ci il tarixlərində Azərbaycan nümayəndə heyətinin Ermənistan paytaxtına səfərinə cavab olaraq həyata keçirilir. Bu formatda Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrinin görüşlərinin keçirilməsi avqustun 8-də Vaşinqtonda qəbul edilmiş Birgə Bəyannaməsinin ruhuna uyğun olaraq sülh gündəliyinin təşviq edilməsinə yönəldilib.

P.İSMAYILOV

# Azərbaycanın beynəlxalq inteqrasiya modeli!

## Regional tərəfdaşlıq və beynəlxalq təşkilatlarla münasibətlərin inkişafı...



*Yeganə*

Müasir qlobal şəraitdə dövlətlərin inkişaf strategiyasında dünya birliyinə inteqrasiya və beynəlxalq əməkdaşlıq mühüm yer tutur. Qlobal problemlərin - təhlükəsizlik, iqtisadi sabitlik, enerji təminatı, iqlim dəyişiklikləri, miqrasiya və digər çağırışların həlli üçün dövlətlərin qarşılıqlı əlaqəsi zəruri amil kimi çıxış edir. Bir sözlə, dünya birliyinə inteqrasiya ölkələrin beynəlxalq sistemin siyasi, iqtisadi, hüquqi və mədəni standartlarına uyğunlaşmasını nəzərdə tutur.

Azərbaycanda həyata keçirilən siyasətin əsas məqsədlərindən biri də dünya birliyinə inteqrasiya, beynəlxalq təşkilatlarla münasibətlərin daha da genişləndirilməsindən ibarətdir. Dövlətimiz bu siyasəti 1990-cı illərin əvvəllərindən bəri uğurla davam etdirir. Azərbaycan bu gün bölgə ölkələri ilə qarşılıqlı əməkdaşlıq, beynəlxalq aləmdə öz sözünü demiş böyük dövlətlərlə uğurlu tərəfdaşlıq fonunda, həm də dünyanın aparıcı beynəlxalq qurumlarında kifayət qədər fəal iştirak edir. Möhkəm təməl üzərində yaradılan güclü iqtisadi potensial, toplanmış maliyyə resursları, cəmiyyət həyatının bütün sahələrinin dinamik tərəqqisi, enerji, ərzaq təhlükəsizliyi kimi məsələlərin uğurla həlli Azərbaycana tam müstəqil, milli maraqlara hesablanan xarici siyasət yürütməyə imkan verib.

Ümumiyyətlə, həyata keçirilən qlobal miqyaslı tədbirlər Azərbaycanın dövlətlərarası əlaqələrini gücləndirməklə bərabər, həm də ölkəmizin dünya miqyasında nüfuzunun daha da artırılmasını, Cənubi Qafqazda lider dövlətə çevrilməsini şərtləndirib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

Milli Məclisin Regional məsələlər komitəsinin üzvü Tahir Rzayev “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, Azərbaycan bir çox sahələrdə olduğu kimi, region ölkələri, beynəlxalq təşkilatlarla əməkdaşlıq istiqamətində də islahatlar siyasətinin davamlı tərkib hissəsi olaraq xüsusi addımlar atır: “44 günlük İkinci Qarabağ döyüşündən sonra Cənubi Qafqazda sabitliyin bərpa olunması ilə regionda geostrateji lider kimi Azərbaycan dövləti vacib addımlar atır. Şübhəsiz ki, dünya ictimaiyyəti, xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən də yürüdülən siyasət yüksək qiymətləndirilməkdədir”.

Deputat qeyd edib ki, son dövrlər ölkəmizə olan marağın və inamın nəticəsində Azərbaycan dövlətinə bir çox sahələrdə çoxşaxəli əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı təkliflər artmaqdadır: “Bu da Azərbaycan dövlətinin güvənilir bir dövlət, ölkə başçısı İlham Əliyevin güvənilir bir şəxsiyyət, dövlət xadimi, ölkə rəhbəri olması və dünya liderləri arasında xüsusi çəkiyə malik olmasının da bariz nümunəsidir. Bu baxımdan dünya birliyinə inteqrasiya prosesinin sürətlə getdiyini sadəcə görmürük, eyni zamanda bu dövrün müasirləri olaraq hər birimiz öz sahəmizdə hiss edir və yaşayırıq.

Şübhəsiz ki, Azərbaycan dövləti atmış olduğu bütün addımlarını beynəlxalq hüquq normalarına əsaslanaraq, ədalət prinsipinə söykənərək, ən əsası ölkəmizin milli maraqlarını rəhbər tutur. Bu da yalnız və yalnız Azərbaycan dövlətinə, Azərbaycan xalqına xidmətin vacib bir nümunəsidir ki, dövlət başçımızın rəhbərliyi altında həyata keçirilir”.

Parlament üzvünün sözlərinə görə, bu gün ölkəmizin dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi siyasəti balanslaşdırılmış və çoxşaxəli formada davam etdirilməkdədir: “İkitərəfli əlaqələrin inkişafına önəm verən Azərbaycan, ilk növbədə, qonşu dövlətlər olan Türkiyə, Rusiya və Gürcüstan ilə qarşılıqlı faydalı və hərtərəfli əməkdaşlığını genişləndirməkdədir. Azərbaycan həm də region dövlətləri arasındakı münasibətlərin geniş potensialından yararlanmaq məqsədilə yaradılan üçtərəfli formatların fəal iştirakçısıdır. Beynəlxalq münasibətlərin fəal iştirakçısı olan Azərbaycan xarici siyasətində qlobal və regional səviyyəli nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa da böyük önəm verir. Bütün bunlar onu göstərir ki, Azərbaycan beynəlxalq birliyin müstəqil və təmhüquqlu subyekti kimi öz milli maraq və mənafelərini qarşılıqlı hörmət və ortaq faydalanma prinsipləri çərçivəsində həyata keçirir. Reallaşdırılan çoxvektorlu və uzaqgörən xarici siyasət nəticəsində Azərbaycanın beynəlxalq nüfuzu daha da artıb, eləcə də ölkəmizin beynəlxalq arenadakı mövqeyi möhkəmlənib.

Azərbaycan Cənubi Qafqazda yaranan yeni reallıqlar kontekstində beynəlxalq təşkilatlarla fəal iş səviyyəsinin həcmini genişləndirir. Bütün bu proseslər Prezident İlham Əliyevin siyasi uzaqgörənliyi və düzgün istiqamətdə görülən işlərin müsbət nəticəsidir. Yaxın zaman çərçivəsində Azərbaycanın bu istiqamətdə daha ciddi uğurlar əldə edəcəyi gözlənilir. Prezidentin uğurlu daxili və xarici siyasəti ölkəmizin beynəlxalq aləmdə mövqelərini ildən-ilə daha da gücləndirir və bundan sonra da gücləndirəcək”.

# Ədalət işığında...



*Yeganə BAYRAMOVA*

Hər bir dövlətin dayağı onun ədalətidir. Ədalət isə öz-özünə yaranmır, onu yaşadan, qoruyan, tətbiq edən insanlar var. Ölkəmizin keyfiyyətcə yeni və səmərəli fəaliyyət mərhələsinə qədəm qoymuş məhkəmə-hüquq islahatları var. Məhz həmin islahatlar ədliyyə orqanlarının inkişafına yönəlib. Dünya təcrübəsi də göstərir ki, hüquqi dövlətin qurulmasının təməlində möhkəm ədliyyə sistemi dayanır. Möhkəm ədliyyə sisteminin yaradılması isə əzm və iradə tələb edir.

Ümumiyyətlə, ədliyyə sözünün mənası çox genişdir. Mükəmməl ədliyyə sistemi olan dövlətdə vətəndaşların hüquq və azadlıqları, qanun qarşısında bərabərlikləri təmin olunur. Bu gün ədliyyə işçilərinin peşə bayramıdır. Heydər Əliyev tərəfindən imzalanmış 11 noyabr 2000-ci il tarixli Sərəncamla Azərbaycan Xalq Cümhuriyyəti Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi gün - 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilib.

**Sağlam zəmində qurulan vətəndaş-məmur münasibəti**

İnsanlara layiqli xidmət, vətəndaş məmnunluğu ədliyyə işçilərinin fəaliyyətinin əsas prioritetidir. Dövlət başçısının tələbləri daim rəhbər tutulmaqla vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, vətəndaşların müraciətlərinə daim diqqət və qayğı ilə yanaşılmasına şahid oluruq. İcra intizamına və etik davranış qaydalarına əməl olunması ədliyyə işçilərinin ən ümdə vəzifələridir və sevindirici haldır ki, onlar bu vəzifələri layiqincə yerinə yetirirlər.

**Ədliyyə sahəsində texnoloji yeniliklər**

Son illər bütün sahələrdə olduğu kimi ədliyyə sahəsində də yeni texnoloji nailiyyətlərin şahidi oluruq. Belə ki, vətəndaş məmnunluğu doğuran “Mobil notariat” tətbiqi vasitəsilə müəyyən notariat hərəkətləri məsafədən daha asan, sürətli və rahat həyata keçirilir. Dövlət orqanları arasında ən çox istifadə edilən “Mobil notariat” tətbiqinin istifadəyə verilməsi, eyni zamanda, ölkə hüdudlarından kənarda olan vətəndaşlarımız üçün daha çox yararlı olub.

**Ədliyyə işçiləri Prezidentin ətrafında sıx birləşiblər**

Bu gün fəxrlə söyləyə bilərik ki, Azərbaycan iqtisadi inkişaf tempinə görə dünyada lider dövlətlərdəndir. Ümumiyyətlə, son 24 ildə Ədliyyə Nazirliyində peşə bayramının qeyd olunması ədliyyə işçiləri tərəfindən geniş miqyaslı olmaqla bərabər, xüsusi maraq və böyük ruh yüksəkliyi ilə qeyd edilir.

Azərbaycanın bütün ədliyyə işçiləri dövlət başçısının ətrafında sıx birləşib. Şanlı Zəfərlə Azərbaycan ədliyyəsi də yeni tarixi mərhələyə qədəm qoyur. Dövlət başçısının tapşırıqlarına uyğun olaraq azad edilmiş ərazilərdə ədliyyə və məhkəmə fəaliyyətinin bərpa olunması, bu orqanların infrastrukturunun yaradılması, onların işinin təşkili üzrə zəruri tədbirlərin görülməsi isə ədliyyə sahəsində çalışanların qarşısında duran mühüm vəzifələrdəndir.

Ədliyyə işçilərini peşə bayramları münasibətilə təbrik edir, onlara qanunun aliliyi və insan hüquqlarının təmin olunması kimi şərəfli fəaliyyətlərində yeni nailiyyətlər arzulayırıq!

# “Texnoİnnovasiya Fondu” nə üçün lazımdır?

## Rəqəmsal iqtisadiyyat çağırışları dövlət və özəl kapitalın inteqrasiyasını labüdləşdirir

Milli Məclisin plenar iclasında müzakirə olunan “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” qanun layihəsi barədə fikirlərini bildirən Tahir Mirkişili Azərbaycanda rəqəmsal iqtisadiyyat və innovasiya fondunun yaradılmasını təklif edib. İqtisadçı bildirib ki, elm və rəqəmsallaşma sahələri üçün dövlət və özəl kapitalın birgə “Texnoİnnovasiya Fondu” yaradılması startap ekosisteminə və universitet tədqiqatlarına birbaşa maliyyə dəstəyinin verilməsi imkanlarını xeyli artıra bilər. Onun fikrincə, bu qeyri-neft gəlirlərinin artırılmasına da töhfə verə, iqtisadiyyatın elmtutumlu rəqabətliliyini gücləndirə bilər.

### İnsan kapitalına əsaslanan cəmiyyət quruculuğu

Rəqəmsallaşma müasir dövrümüzün dinamik sürətlə inkişaf edən, bu və ya digər formada milli iqtisadiyyatlara və cəmiyyətlərə öz təsirini göstərən ayrılmaz prosesinə çevrilib. Son illər ərzində ölkəmizdə “Elektron hökumət”in formalaşması, dövlət orqanlarının informasiya sistemləri arasında xüsusi infrastruktur vasitəsilə informasiya mübadiləsinin aparılması, “Elektron hökumət”in fəaliyyəti üçün vacib əhəmiyyət kəsb edən dövlət informasiya sistemləri və ehtiyatlarının yaradılması istiqamətində mühüm işlər görülüb, müasir informasiya-kommunikasiya texnologiyalarının, telekommunikasiya qurğularının və innovasiyaların geniş tətbiqi nəticəsində qabaqcıl texnoloji infrastruktur qurulub. Həmin infrastrukturun bazasında iqtisadi inkişafın daha yeni tələbi olan “Rəqəmsal hökumət”ə keçidin sürətləndirilməsi üçün əlavə imkanlar səfərbər edilib. Çünki müasir inkişaf tələbləri rəqəmsal texnologiyaların tətbiqi və açıq məlumatlardan istifadə yolu ilə xidmətlərin göstərilməsini və dövlət idarəçiliyinin təkmilləşdirilməsini zəruri edir. “Rəqəmsal hökumət”in formalaşması isə rəqəmsal bilik, bacarıq və vərdişlərin artırıldığı, o cümlədən biznes proseslərinin avtomatlaşdırıldığı və rəqəmsal iqtisadiyyatın mövcud olduğu rəqəmsal cəmiyyət quruculuğundan keçir. Azərbaycan bu məqsədlərə çatmaq üçün rəqəmsal texnologiyalardan istifadə yolu ilə dövlət idarəçiliyində səmərəlilik və vahid yanaşma təmin edilməsini, dövlət idarəetməsinin və biznes proseslərinin rəqəmsallaşması ilə bu sahələrdəki pərakəndəliliyi aradan qaldırılmasını, iqtisadi artıma və sahibkarlığın, eləcə də insan kapitalının inkişafına nail olunmasını başlıca hədəflər kimi müəyyən edib.



### “Milli Prioritetlər”dən irəli gələn tələb

Qeyd edilən istiqamətlərdə ötən illər ərzində kifayət qədər uğur və nailiyyətlər də əldə olunub. Rəqəmsallaşma ilə bağlı qabaqcıl Avropa və Asiya şirkətləri ilə birgə əməkdaşlıq Azərbaycanın qlobal miqyasda rəqabət qabiliyyəti indeksləri üzrə mövqeyinin artmasında da mühüm rol oynayıb. Belə ki, Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının “Transsərhəd kag?ızsız ticarət” indikatoru üzrə hər il açıqlanan beynəlxalq reytinqində Azərbaycanın mövqeyi MDB və region ölkələri arasında ən üst sırada yer alıb. Həmçinin, Azərbaycan Dünya Bankının hazırladığı “GovTech Yetkinliyi İndeksi”nin (GovTech Maturity İndex - GTMI) 2023-cü il üzrə hesabatında yüksək nəticələr əldə edib. Belə ki, 198 ölkəni qiymətləndirən indeksdə Azərbaycan yüksək rəqəmsallaşma səviyyəsinə görə birinci pilləyə yüksəlib.

Azərbaycan hökuməti rəqəmsal hökumət, rəqəmsal iqtisadiyyat quruculuğuna daha geniş yer verməklə, rəqəmsal transormasiyanı cəmiyyətin idarə olunmasının ən vacib sektoruna çevirməkdə qərarlıdır. Dövlət başçısının müvafiq sərəncamları ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” və “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədlərində iqtisadiyyatın və cəmiyyətin rəqəmsal transformasiyası istiqamətində ciddi tapşırıqları özündə ehtiva edən tədbirlər müəyyənləşibdir. Həmin tədbirlər planına əsasən, rəqəmsal infrastrukturların vahid mərkəzdə birləşdirilməsi, idarə olunması həlli vacib məsələ kimi dayanır.

### Vahid əlaqələndirmə çevik idarəetməni gücləndirir

Hazırda rəqəmsal sektorda koordinasiyanı təmin edən İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi rəqəmsal transformasiya sahəsində fəaliyyətin təşkili, yerli innovasiya mühitinin formalaşması, ekosistemin möhkəmlənməsinə xidmət göstərməkdədir. Ancaq bir sıra hallarda koordinasiyasızlıq dövlət və özəl sektorun işinə manə yaradır. Ona görə də rəqəmsallaşma sahəsində biznesin və dövlət orqanlarının üzləşdiyi hüquqi çətinliklərin aradan qaldırılması ilk növbədə rəqəmsal iqtisadiyyat üçün yeni imkanlar vəd edir, biznesin daha çevik reallaşdırılmasına və iqtisadi artımın sürətlə baş verməsinə şərait yaradır. Eləcə də bu prosesin cəmiyyət həyatına daha geniş nüfuz etməsi yeni iş yerlərinin açılması, həyat keyfiyyətinin yüksəldilməsi, məhsuldarlığın artırılması, şəffaflığın təmin edilməsi, eləcə də kiçik və orta sahibkarlığın inkişafına töhfə verilməsi ilə iqtisadiyyata müsbət təsir göstərir.

Bütün bu sadalanan hədəf çağırışları texnoloji inqilaba, yeni industrial cəmiyyət quruculuğuna inteqrasiyanı daha da labüdləşdirir. Bu baxımdan “Texnoİnnovasiya Fondu” yaradılması təşəbbüsü məntiqli hesab edilə bilər.

*ELBRUS CƏFƏRLİ*

# Rusiya - Ukrayna müharibəsində yeni perspektivlər

## Tramp planı regiona arzulanan sülhü gətirəcəkmi?

Uzanan və ötən hər gün tərəflər üçün böyük itkilərə səbəb olan Rusiya-Ukrayna müharibəsində yeni mərhələyə keçid baş verə bilər. Buna ümidləri Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Trampın Rusiya-Ukrayna müharibəsinə son qoymaq üçün 28 maddəlik sülh planı təqdim etməsi yaradıb.

Sənəd bütün dünyanın təsirləndiyi müharibənin sülhlə sonuclanmasına Ağ Evin yanaşma çərçivələrini özündə ehtiva edir. Əsas sual isə belədir: Sənəd regiona arzulanan sülhü gətirəcəkmi? Suala birmənalı şəkildə "hə" və yaxud "yox" cavabını vermək çətindir. Trampın planı xoş niyyət kimi görünsə də, ona bir sıra ciddi məqamları nəzərə almaqla tam şəkildə optimist yanaşmaq mümkün deyil. Heç şübhəsiz ki, tərəflərin və müharibənin əvvəlindən Ukraynaya güclü şəkildə dəstək verən Avropa İttifaqının (Aİ) münasibəti hadisələrin gedişinə öz təsirini göstərəcək. Beləliklə, zamana və müzakirələrin aparılmasına ehtiyac var. Bəs sənəd özündə nələri ehtiva edir?

### Ukrayna nə itirəcək, nə qazanacaq?



Bu günədək müharibənin gedişində Ukrayna sahəcə böyük itkilərə məruz qalıb. Geniş təmas xətti boyunca ölkə ərazisinin təxminən 20 faizi işğal altına düşüb, çoxlu sayda şəhər və kənd yerlə-yeksan edilib, yüz minlərlə hərbçi və mülki şəxs həyatını itirib, milyonlarla ukraynalı doğma ev-eşiklərini tərk etmək, xarici ölkələrə sığınmaq məcburiyyətində qalıb. İqtisadiyyat iflic hala gəlib, hətta iri şəhərlərdə, paytaxt Kiyevdə belə elektrik enerjisi fasilələrlə verilir. Ölkədə humanitar yardıma ehtiyac getdikcə daha da artır. Müharibə uzandıqca dövlət idarəçiliyində də nizamın pozulması halları artır. Elə bu günlərdə son dörd ildə, əslində, ianələr, ABŞ-dan, Aİ-dən, digər dövlətlərdən göndərilən yardımlar hesabına ayaqda qalan ölkədə böyük korrupsiya faktının üstü açılıb. Verilən məlumatlara görə, 15 aylıq əməliyyat və 1000 saata yaxın audioyazılar nəticəsində dövlətin strateji müəssisələrinə, xüsusən də "Ukratomenerqo" şirkətininə təsir göstərmək, pul yuyulması və qanunsuz varlanma məqsədilə qurulmuş genişmiqyaslı korrupsiya sxemi sənədləşdirilib. İstintaq orqanları bildirirlər ki, korrupsiya sxeminin iştirakçıları "Ukratomenerqo" şirkətinin özəl podratçılarla bağladığı müqavilələrdən təqribən 100 milyon dollar oğurlayıblar.

Belə hallar əvvəllər də baş verib. Bütün bunlar isə ona dəlalət edir ki, uzanan müharibə ölkəni təhlükəli xaosa sürükləyir. Eyni zamanda, ayrı-ayrı platformalar çərçivəsində sülh danışıqlarının iflasa uğraması, Aİ-nin vəd olunan yardımları gecikdirməsi fonunda Ukrayna müqavimət gücünün azalması və yeni ərazi itkiləri riskləri ilə üz-üzə qalıb. Bəli, Ukrayna ordusu döyüşür, bir igidlik nümunəsi göstərir, ancaq bu, müharibənin gedişində dönüş yaratmaq üçün kifayət deyil. Orduda resurs qıtlığı və canlı qüvvə çatışmazlığı hiss olunur. Ukraynanın ağır vəziyyətdə olduğunu təsdiqləyən başqa belə neqativlər də sadalamaq mümkündür...

Bəs Trampın sülh planına əsasən Ukrayna nə itirəcək və nə qazanacaq? Bütövlükdə, müharibə ssenarisindən imtina edilməsini Kiyev üçün bir şans kimi dəyərləndirmək mümkündür. Eləcə də Tramp planına əsasən Ukraynanın suverenliyi təsdiqlənəcək. Bu bənd ölkənin dövlətçiliyinin qorunmasını və onun ilhaq olunmasının yolverilməzliyini özündə ehtiva edir. İndiyədək Zelenski sülh danışıqlarının aparılması üçün beynəlxalq birlik qarşısında təhlükəsizlik zəmanəti tələbini qoyurdu. Bu tələb ödənilir və Ukrayna etibarlı təhlükəsizlik zəmanətləri alır. Ölkənin Avropa İttifaqının üzvlüyünə uyğunluğunun təsdiqlənməsini də Ukraynanın aktivinə yazmaq mümkündür. Uzun müddətdir ki, Kiyev Avropa İttifaqına üzvlüyə can atır . İndiyədək inteqrasiya yolunda müəyyən addımlar atılıb. O cümlədən Brüsseldə Ukraynanın Aİ-yə üzvlüyünə siyasi razılıq var. Bu günlərdə açıqlanan genişlənmə planı hesabatında Ukraynanın Aİ-nin tələblərinə uyğunlaşması pozitiv qiymətləndirlib. Bu o anlama gəlir ki, Avropa İttifaqının qapılarının Kiyevin üzünə açılmasında hansısa bir problem yoxdur. Tramp planı Kiyevin Aİ-yə üzvlük arzusunun reallaşacağına ümidləri daha da artırır. Sənəddə vurğulanır ki, bu məsələ nəzərdən keçirilərkən Ukrayna Avropa bazarına qısamüddətli güzəştli giriş əldə edəcək.

Lakin Tramp planı heç də bütünlüklə, necə deyərlər, Kiyevin arzu və istəklərindən ibarət deyil. Məlumdur ki, Ağ Evin yeni administrasiyası daim qarşılıqlı güzəştlərin zəruriliyi tezisindən çıxış edir. Təqdim olunan sülh planında da Ukraynanın bir sıra maksimalist planlarından geri çəkilməsi istənilir. O cümlədən;

- Ukrayna Silahlı Qüvvələrinin sayı 600 min nəfərlə məhdudlaşdırılmalı,

- Ukrayna öz Konstitusiyasında NATO-ya qoşulmayacağını təsbit etməyə və NATO öz nizamnamələrinə Ukraynanın gələcəkdə qəbul edilməyəcəyi barədə müddəa daxil etməli,

- Ukrayna Nüvə Silahlarının Yayılmaması haqqında Müqaviləyə uyğun olaraq nüvəsiz dövlət olmağa razılaşmalı.

Sənədə əsasən, Ukraynanın ən böyük itkilərindən biri müəyyən ərzilərin təhvil verilməsinin nəzərdə tutulması sayıla bilər. İndiyədək Kiyev Rusiyanın məlum şərtlərinə "bir qarış da ərazi verməyəcəyik" cavabını səsləndirirdi. Trampın təqdim olunan planında isə:

- Krım, Luqansk və Donetsk faktiki olaraq Rusiya ərazisi kimi tanınacaq.

-Xerson və Zaporojye təmas xətti boyunca dondurulacaq ki, bu da təmas xətti boyunca de-fakto tanınma deməkdir.

- Rusiya beş bölgə xaricində nəzarət etdiyi digər razılaşdırılmış ərazilərdən imtina edəcək.

- Ukrayna qüvvələri hazırda Donetsk vilayətinin nəzarət etdikləri hissəsindən geri çəkiləcək və bu geriçəkilmə zonası beynəlxalq səviyyədə Rusiya Federasiyasına məxsus ərazi kimi tanınan neytral silahsızlaşdırılmış bufer zonası hesab ediləcək. Rusiya qüvvələri bu silahsızlaşdırılmış zonaya daxil olmayacaq.

-Gələcək ərazi razılaşmaları barədə razılığa gəldikdən sonra həm Rusiya Federasiyası, həm də Ukrayna bu razılaşmaları güc yolu ilə dəyişdirməməyi öhdələrinə götürür. Bu öhdəliyin pozulması halında heç bir təhlükəsizlik zəmanəti tətbiq olunmayacaq.

-Rusiya Ukraynanın Dnepr çayından kommersiya fəaliyyəti üçün istifadəsinə mane olmayacaq və Qara dəniz üzərindən taxılın pulsuz daşınması barədə razılaşmalar əldə ediləcək.

Sadalanan bəndlər Ukraynanın faktiki olaraq qeyd olunan ərazilər üzərində suverenliyini itirməsi anlamına gəlir. Seçki tələbi də ən azından Ukraynanın indiki hakimiyyəti üçün daha bir arzuolounmaz məqam kimi dəyərləndirilə bilər. Ölkədə 100 gün ərzində seçkilər keçirilməsi Ukraynanın qarşısına tələb kimi qoyulur. Bəzi analitiklər bu tələbin Zelenskinin əvəzlənməsi, daha loyal bir siyasi fiqurun hakimiyyətə gətirilməsinə hesablandığını bildirirlər.

### Şərtlər müqabilində geniş bərpa planı

Təqdim olunan sənəddə Ukraynanın qarşısına qoyulan şərtlərlə razılaşacağı təqdirdə ölkənin geniş bərpa planı təklif olunur. O cümlədən Ukraynanın yenidən qurulması üçün güclü qlobal tədbirlər paketinə aşağıdakılar daxildir:

- Texnologiya, data mərkəzləri və süni intellekt də daxil olmaqla, sürətlə inkişaf edən sənaye sahələrinə investisiya qoymaq üçün Ukrayna İnkişaf Fondunun yaradılması.

- Amerika Birləşmiş Ştatları Ukraynanın qaz infrastrukturunu, o cümlədən boru kəmərləri və saxlama obyektlərini birgə yenidən qurmaq, inkişaf etdirmək, modernləşdirmək və idarə etmək üçün Ukrayna ilə əməkdaşlıq edəcək.

- Şəhərlərin və yaşayış məntəqələrinin bərpası, yenidən qurulması və modernləşdirilməsi üçün müharibədən zərər çəkmiş ərazilərin bərpası üzrə birgə səylər.

- İnfrastrukturun inkişafı.

- Minerallar və təbii sərvətlərin çıxarılması.

- Dünya Bankı bu səyləri sürətləndirmək üçün xüsusi maliyyələşdirmə paketi hazırlayacaq.

Kiyevdən Tramp planına Ukrayna Prezidenti Ofisinin bəyanatı ilə münasibət bildirilib: "Rusiyanın hücumunun ilk saniyələrindən Ukrayna sülhə can atır və biz əsl sülhü yaxınlaşdıra biləcək bütün təklifləri dəstəkləyirik. Bu ilin əvvəlindən Ukrayna Prezident Trampın qan tökülməsinə son qoymaq təkliflərini dəstəkləyib", - deyə məlumatda vurğulanıb.

Məlumatda qeyd edilib ki, Ukrayna sülhə nail olmaq üçün ABŞ, Avropa İttifaqı və bütün dünyada tərəfdaşları ilə konstruktiv əməkdaşlığa hazırdır.

"Ukrayna Prezidenti yaxın günlərdə Prezident Trampla mövcud diplomatik imkanları və sülh üçün lazım olan əsas məqamları müzakirə etməyi gözləyir", - deyə Prezident Ofisindən bildirilib.

### Rusiya qlobal iqtisadiyyata yenidən inteqrasiya edəcək

Tramp planında müharibənin digər tərəfi olan Rusiya üçün də bir sıra şərtlər nəzərdə tutulub. Məlumdur ki, son illərdə Avropada müharibə kabusu dolaşmaqdadır. Aİ rəsmiləri və ayrı-ayrı ölkələrin dövlət və hökumət başçıları həyəcan təbili çalaraq bildirirlər ki, Rusiya Ukraynada dayanmayacaq, mütləq qaydada müharibənin arealını genişləndirəcək. Hazırda Polşada, Almaniyada, Fransada, Finlandiyada və digər ölkələrdə mümkün Rusiya hüçümlarının qarşısını almaqdan ötrü ciddi müharibə hazırlıqları görülür. O cümlədən, hərbi büdcə artırılır, silah istehsalı genişləndirilir, insanlar kritik vəziyyətə hazırlanır. Tramp planında isə Avropaya Rusiya müdaxiləsi ssenarisinə "yox" deyilir. Beləliklə,

- Rusiya, Ukrayna və Avropa arasında qarşılıqlı hücum etməməklə bağlı müqavilə bağlanacaq. Son 30 ilin bütün qeyri-müəyyənlikləri həll olunmuş hesab ediləcək.

- Rusiya qonşu ölkələrə hücum etməyəcək və NATO daha da genişlənməyəcək.

- Qlobal təhlükəsizliyi təmin etmək, əməkdaşlıq və gələcək iqtisadi inkişaf üçün imkanları artırmaq məqsədilə bütün təhlükəsizlik məsələlərini həll etmək və gərginliyin azaldılmasına şərait yaratmaq üçün ABŞ-ın vasitəçiliyi ilə Rusiya ilə NATO arasında dialoq aparılacaq.

- Rusiya Avropa və Ukraynaya qarşı təcavüzkarlıq etməmək siyasətini qanunla təsbit edəcək,

- ABŞ və Rusiya START I Müqaviləsi də daxil olmaqla, nüvə silahlarının yayılmaması və nəzarəti haqqında müqavilələrin qüvvədə olma müddətini uzatmaq barədə razılığa gələcək.

Təqdim olunan sülh planında Rusiya üçün böyük önəm daşıyan müddəalardan biri sanksiyaların götürülməsi ilə bağlıdır. Müharibənin əvvəlindən etibarən Aİ və ABŞ bir neçə mərhələdə Rusiyaya qarşı ağır sanksiyalar tətbiq edib. Hazırda Avropa İttifaqı bu ölkəyə qarşı yeni, sayca 20-ci sanksiyalar paketini tətbiq etməyə hazırlaşır. Bu sanksiyaların tətbiqində əsas məqsəd Rusiyanın maliyyə gəlirlərini azaltmaq və bu yolla müharibə aparmaq imkanlarını tükətməkdən ibarətdir. Əsas pozisiyalardan biri isə Rusiyadan enerji məhsullarının ixracının qarşısını almaqdır. Tətbiq olunan sanksiyalar Rusiya iqtisadiyyatına güclü təsir göstərir.

Tramp planına əsasən isə Rusiya qlobal iqtisadiyyata yenidən inteqrasiya olunacaq. Sanksiyaların ləğvi mərhələli şəkildə, hər bir hal üçün ayrıca müzakirə ediləcək və razılaşdırılacaq. Amerika Birləşmiş Ştatları enerji, təbii sərvətlər, infrastruktur, süni intellekt, məlumat mərkəzləri, Arktikada nadir torpaq metallarının çıxarılması layihələri və digər qarşılıqlı faydalı korporativ imkanlar sahələrində qarşılıqlı inkişaf üçün uzunmüddətli iqtisadi əməkdaşlıq müqaviləsi bağlayacaq. Rusiya G8-ə yenidən qoşulmağa dəvət olunacaq. Dondurulmuş vəsaitlər aşağıdakı kimi istifadə olunacaq:

- Dondurulmuş Rusiya aktivlərinin 100 milyard dolları ABŞ-ın rəhbərliyi ilə Ukraynanın yenidən qurulması və investisiya qoyuluşuna yatırılacaq;

- ABŞ bu layihədən əldə edilən mənfəətin 50 faizini alacaq. Avropa Ukraynanın yenidən qurulması üçün mövcud investisiyaların həcmini artırmaq üçün 100 milyard dollar əlavə edəcək. Dondurulmuş Avropa vəsaitləri açılacaq. Dondurulmuş Rusiya vəsaitlərinin qalan hissəsi müəyyən sahələrdə birgə layihələr üçün ABŞ-Rusiya investisiya mexanizminə yatırılacaq. Bu fond münasibətlərin möhkəmləndirilməsinə və münaqişəyə qayıtmamaq üçün güclü stimul yaratmaq məqsədilə ortaq maraqların artırılmasına yönəldiləcək.

Eyni zamanda, bu müqavilənin bütün müddəalarına riayət olunmasını təşviq və təmin etmək üçün təhlükəsizlik məsələləri üzrə birgə Amerika-Rusiya işçi qrupu yaradılacaq.

### Avropadan reaksiya...

Avropadan etirazlar özünü çox gözlətməyib. Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas Tramp administrasiyasının hazırladığı "sülh planı"na qarşı çıxıb.

Kallas bildirib ki, hər hansı planın işləməsi üçün ukraynalıların və avropalıların dəstəyi vacibdir və bu münaqişədə "bir aqressor və bir qurbanın olduğu" açıq şəkildə görünür. Onun sözlərinə görə, Rusiya həqiqətən sülh istəyirdisə, çoxdan şərtsiz atəşkəsə razılaşardı, lakin mülki əhali hələ də bombardman edilir. O həmçinin vurğulayıb ki, Aİ ABŞ-ın hazırladığı plana cəlb olunmayıb.

K.Kallasın açıqlaması o anlama gəlir ki, Aİ birmənalı şəkildə sülh prosesndə yer almaq istəyir. Əslində, bu, müəyyən mənada məntiqli görünür. Çünki indiyədək Ukrayna müharibəni böyük dərəcədə Aİ-nin dəstəyi sayəsində davam etdirib. Belə olan halda, Brüsselin özünün sülh planında iştirakını vacib sayması məntiqdən kənar deyil.

Dünən Avropa liderləri müharibənin dayandırılmasına dair ABŞ-Rusiya təklifini müzakirə etmək üçün Ukrayna Prezidenti Volodimir Zelenski ilə təcili danışıqlar aparıblar. Telefon danışığında davamlı və ədalətli sülhə nail olunması yolunda Ukraynaya sarsılmaz və tam dəstəklərini təsdiqləyiblər.

"Report" xəbər verir ki, bu barədə Almaniya kansleri Fridrix Merts, Fransa Prezidenti Emmanuel Makron və Böyük Britaniyanın Baş naziri Kir Starmerin Volodimir Zelenski ilə telefon danışığının nəticələrinə dair Almaniya Federal hökumətinin dərc etdiyi bəyanatda qeyd olunub.

"Dörd lider Birləşmiş Ştatların Ukraynada müharibənin dayandırılması üçün göstərdiyi səyləri alqışlayıb. Xüsusilə onlar Ukraynanın suverenliyinə sadiqliyi və Kiyevə etibarlı təhlükəsizlik zəmanətləri vermək istəyini alqışlayıblar", - məlumatda bildirilib.

Bundan başqa, liderlər Avropa və Ukraynanın maraqlarının uzunmüddətli müdafiəsinin vacibliyini vurğulayıblar. Əsas şərtlər arasında təmas xəttinin mümkün qarşılıqlı anlaşma üçün başlanğıc nöqtəsi kimi tanınması və Ukrayna silahlı qüvvələrinin ölkəni səmərəli şəkildə qorumaq qabiliyyətinin təmin edilməsi yer alır.

*Mübariz ABDULLAYEV*

# Fransa ilə Rusiya arasında uran mübadiləsi gizli şəkildə davam edir




Avropa İttifaqının Ukraynada müharibə başlayandan sonra Rusiyaya enerji asılılığını azaltmaq öhdəliyi götürməsinə baxmayaraq, Fransa ilə Rusiya arasında uran mübadiləsinin sakit şəkildə davam etdiyi bildirilir. Bu barədə məlumatı "Le Parisien" qəzeti yayıb və ekoloji təşkilat "Greenpeace" prosesin Avropa öhdəliklərini pozmaq olduğunu bəyan edib.

AZƏRTAC xəbər verir ki, "Greenpeace"in məlumatına görə, son aylarda Dunkerq limanında Fransa AES-lərindən çıxan azaldılmış uranla dolu ən azı on konteyner Rusiyaya göndərilib. Təşkilat bu daşımaları illərdir izlədiyini və "Mikhail Dudin" adlı yük gəmisinin yenidən həmin nəqliyyatı həyata keçirdiyini iddia edir. Bu məlumatlar Avropa İttifaqının (Aİ) Rusiya enerji resurslarına olan asılılığını azaltmaq siyasətinin ardıcıllığına dair suallar doğurur. Məlumata görə, prosesdə əsas rol oynayan qurumlardan biri EDF-Fransa Elektrik Şirkətidir. Şirkət Fransada istifadədən çıxmış yanacağı Rusiyaya göndərir, burada "yenidən zənginləşdirilə bilən" uran kimi emal olunur və sonra yenidən Fransaya qaytarılaraq yeni istehsal dövrlərində istifadə edilir.

Bu təcrübə hüquqi baxımdan mümkün sayılsa da, Brüsselin "Rusiyadan enerji idxalına son qoymaq" öhdəliyi fonunda ciddi mübahisələr yaradır. Xüsusilə də nüvə enerjisinin Aİ sanksiyalarından kənarda qalması Rusiyanın "Rosatom" vasitəsilə bu sahədə təsirini qorumasına imkan verir.

Nüvə sənayesi nümayəndələri bu mübadilənin zəruri texniki proses olduğunu bildirir. Azaldılmış uranın yenidən işlənməsi mürəkkəb və yüksək ixtisas tələb edən əməliyyatdır və hazırda bu imkanlara tam şəkildə yalnız Rusiyanın malik olduğu deyilir. Sənaye üçün bu materiallar strateji olduğundan, onların emalı məcburi hesab olunur. Ekoloji təşkilatlar isə bu arqumenti qəbul etmir. "Greenpeace"in fikrincə, Fransa və Aİ-nin bu praktikanı davam etdirməsi Rusiyanın Avropa enerji sektorundan maddi qazanc əldə etməsinə şərait yaradır və siyasi mesaj baxımından da qəbuledilməzdir.

Fransa hökuməti qarşı tərəfin arqumentlərinə cavab olaraq bildirir ki, mübadilə olunan materiallar nə hərbi məqsədlər üçün yararlıdır, nə də yeni yanacaqdır, yəni strateji risk daşımır. Lakin tənqidçilərə görə, əsas məsələ texniki yox, geosiyasi xarakter daşıyır. Bu ticarət açıq şəkildə elan olunmayan, lakin müntəzəm şəkildə həyata keçirilən Avropanın Rusiyadan enerji asılılığını azaltmaq cəhdlərinin hələ də tam gerçəkləşmədiyini göstərir. Sanksiyalardan kənarda qalan "Rosatom" isə dünya nüvə sənayesində hələ də mühüm rol oynamağa davam edir və Aİ ölkələrinin, eləcə də Fransanın, ondan birdən-birə ayrılması çətin görünür.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# ŞƏNBƏ ÜÇÜN NƏZM









**Emin Piri**

## CAN BORCU

Gəl,
döy qapımı...
yolun uzaqdı bilirəm,
əziyyət çəkmə,
sizə gətirrəm
qapımı,
döy,
ürəyin döyünən qədər.

Yaşayıb güldürmədim
səni doyunca.
Qoy
ölüm...
Doyunca ağladım səni.

Tanrım,
sənin də yanında
yalançı oldum,
göndərə bilmədim əmanətini.
Sənə də can borcum qalıb,
nisyə dəftərinə yazarsan məni.

H2O

Payız...
Xəzan pıçıldayır
ağacın qulaqlarına:
"Gözlə məni yazacan".
Sən də gözlə məni,
bir başqa qadından doyanacan...

Barmaqlarım tellərində yellənər,
yelləncəkdə yellənən
dəcəl uşaqlar kimi.
Sinəndəki cüt göyərçin
qonar dodaqlarıma
ağzımda dən varmış kimi.

Hələ,
məktəb illəri...
kimya dərsində
quruyardı boğazım
baxışlarım tutanda
çəhrayı dodaqlarını.
Əllərindən
bir ovuc su istəyən
ürəyimi oxuyardın.
Və...
Lövhəyə iri hərflərlə yazardın:
H2O...

Bu gecə yuxum gəlmədi...
Yuxum gəlmir,
barı sən gəl...
Amma barmağında bəxtin saralır,
Indi ki payız deyil.

Ölçüləri kiçildilmiş xəritədə
şəhərlərimiz əllərindən
daha yaxındı mənə.
Dayan...
Baxım görüm döyən kimdi
ürəyim yaman döyünür.
Xoş gəlir
bu gələn
sənsizliyə oxşayır...
Sənə demişdim də...
Sənsizlik
"Sən" "Siz" olanda başlayır...

## MƏN QÜTB SOYUĞUYAM

Məndən baş çıxara bilmir
Öz doğmaca anam belə...
Sənə də qəribə gəlir?
Nə təhər insanam belə...

Vurub öldürsən də buyam
Bir az atəş , bir az suyam
Bir az da qütb soyuğuyam
Şaxta,
Sazaq ,
Donam belə!

Dönüb sənə baxır hamı
Donub...
Sənə baxır hamı
Saçlarında buz salxımı
Nə qırılam ,sınam belə.

Şəklinə səndən yaxınam
Mən öz evimi yıxanam ...
Belə-belə işlər sonam
Get,
Yaxşı yol ,sonam
-...
Belə!

## NƏ QƏDƏR, NECƏSƏN?

Səni sevməyin yanında
Yaşamaq heç nədi, heç nə!
Gərək səni sevəm,
Sevəm
Ürəyi şüşə qabda yox
Elə səndə olan divəm.

Adın da mürəkkəbdi,
adın dilimə dəyməz.
Özün demişdin axı,
Adam bəxtindən qaçıb
Gülləyə gələnə dəyməz.

Qırmızı şərab kimi
Ölümcül dodaqların,
içkiyə tövbəliyəm
mən yazıq yenə.
Səni qucaqlamaqdı
Kəbədə dövrəm.

əynində dodaqlarımın
qarışqa yerişləri,
yer altında metro kimi
dərd altından barmaqlarımın
"stansiya" gedişləri...
hesablaya bildinmi,
bu gediş-gəlişləri?!

Sərhədləri itirilmiş
Məmləkətin küncündəyəm.
Daha bu kağız ölkədə
Kiməm ki, kimdən inciyəm.

Sağımda sən,
Solumda sən.
De, nə qədərsən,
Neçəsən?!
Bəlkə o qədər sənlərdən
Birin mənimçün keçəsən?

## SAĞ QALAN VARMI?!...

Əsgər sinəsi axtarır
isinməyə
fevral şaxtasından
üşüyən güllə.

Hər əsgər tabutu
bir ağ gəlinliklə köçər...
Əsgər deyil,
sevən qızın arzularını
götürüb gedər
hər atılan güllə.

Soba yanında
gecə yarısı bir qız
məktub yazır səngərə.
Anasının yarıyuxulu
"qızım, yatmamısan?"
sualına diksinib
"üşüyürəm, ana,
odun atıram sobaya" ...

Daha
gecələri oyaq qalmağa,
soba yanında
məktub yazmağa,
yalandan üşüməyə
sobaya odun atmağa
ehtiyac yoxdu...
Tağım komandirinin
səngərdən qıvrıla-qıvrıla
boğuq səsi gəlir:
kimsə sağdı?!

## BAŞ DAŞLARI UTANDIRDI MƏNİ

Şəhid məzarlarını
mərmərə bükdük,
daş qoyduq başlarına
qalxa bilməsinlər
üzümüzə tüpürməyə.

Bu yaşıma görə
şəhidlər xiyabanında
18 yaşlı
baş daşları
utandırdı məni.

məndən kiçikdi hələ
məndən öncə doğulanlar
əmi deyib
üstümə qaçır başdaşları
bir əsgərin ölüm günü
başdaşının doğum günüymüş.

can qoydular
nə düşdü paylarına
sağ qalanlar
daşladılar
torpağının başını.

Şəhid məzarlarını
mərmərə bükdük,
daş qoyduq başlarına
qalxa bilməsinlər
üzümüzə tüpürməyə.

## "EŞQ AYƏLƏRİ"

Baxışların məni istədiyi
operaya çevirən dirijor,
əlim sinəmdə
himn oxumaq kimidi
Səni səsləmək.

Hər sevirəm kəlmən
"Oxu",
"Eşqin adıyla oxu" kimi
səslənər qulağımda.
Hər gecə dodaqlarıma qoyduğun
sevgi vəhylərinin
mən sorğu-sualsız Nəbisi.

Susayarsan gecəyarı,
durub şəklinə baxarsan.
Kəbə divarıtək
üzümü sürtərəm-yanağın
mənim tövbə yerim.

Sevmək -
samovara atılan odun parçasıtək
ürəyimin son çırpıntıları.
Səadət - hər səhər
sevdiyinin gözlərində doğulmaqdı.

Mən "Big Bang" dən doğulmuş
işığına ac qalaktika,
qollarım planet
sən Günəşə dolanır.

Sən olmayanda
əllərimi unuduram,
ayaqlarım məndən xəbərsiz
həyətinizdə ayaq izlərini sığallayır.

Adam ürəkdən yox,
çiyinlərdən və dizlərdən sevir
bütün varlığınla başını qoymağa.

Ən çox sevdiyin sözə çevrilər
körpə şıltaqlığıyla dediyi
dəli kəlməsi.
Baxışların qəlbimdə imza yeri,
səni sevmək möbiüs lentidirsəndən
sənə qaçıram.

Daha saatlar da geri çəkilmir,
bir saat artıq qalasan.
Indi daha çox anlayırsan
Şekspirin obrazlarını.

Başını çıxarıb pəncərədən
qışqırmaq istəyirsən:
Oxuma torağay, oxuma.
inanma
ağzından çıxan kəlmələrə,-
Qadının dili ağzında yox,
gözlərindədi.

Tellərində maqnit qasırğası,
barmaqlarım istiqamətini itirmiş
kompas əqrəbidir indi.

Sənsiz yayın ortasında
dişlərim kilsə zəngi.
Iki min il sonra
sənsizliyin çarmıxında
yerə enən İsayam...

**Sən azadsan!**
**(Savaş qazisinin dilindən)**

Saçımda anamın xınası,
yolların ayaqlarımçün duası,
gözlərimdə hələ bizim olmayan
uzaqlıq deyir:

Sən azadsan!
Sən azadsan!

Ayaqlarım cığırlara yalvarır;
Qarabağ.
biz sənin övladınıq,
ilk dəfə gördüyün övladlar.
Uzaq tut ayaqlarımızdan
bətnində gizlətdiyin minaları.

Füzuli, Cəbrayıl, Hadrut cəbhəsi...
Burda ulduzlarla deyil,
hər minamyot mərmisiylə sayırıq
yarım qalan ümidləri,
anaların göz yaşını,
bir döyüşçü sevgilisinin
bətnində ölən arzusunu.

Günlərdir danışmırıq.
bilirəm, narahatsan, ana.
bəlkə gecələri ağlayıb,
şəklimlə ovunursan, ana,
səni Füzulidən eşidirəm, ana,

səni Cəbrayıldan görürəm, ana,
sənə Şuşadan əl yelləyirəm, ana.

Formamda şəhid qardaşlarımın qanı,
gözlərimdə 44 gecənin yuxusuzlu-
ğu,
bir az həyəcan, bir az da
sevinc tərinə qarışan geyimim.
Qarabağ torpağıyla, palçığıyla
büsbütün vətənləşən bədənimiz
və
bizi gözləyən Azərbaycan
meydanlarda, ürəklərdə, gözləriylə
hayqırır;
Sən azadsan!
Sən azadsan!



# Hər mədəniyyətin öz salamı var

## Dil çıxaranlar, üzə tüpürənlər, burun sürtənlər...

*Yeganə BAYRAMOVA*

Dünyanın hər bir guşəsində insanlar salamlaşarkən bir-birinə yalnız "salam" demirlər. Bu sadə hərəkət, əslində, həm mədəniyyəti, həm də münasibətlərin dərinliyini ifadə edən gizli bir dildir. Salam verməklə insan qarşı tərəfə öz diqqətini, hörmət və sayğısını göstərir.

Hər bir ölkənin özünəməxsus salamlaşma qaydaları var. Qeyd edək ki, 1973-cü ildən başlayaraq hər il 22 noyabr Beynəlxalq Salamlaşma Günü kimi qeyd olunur. Bu bayram iki amerikalı qardaş Maykl və Braun Makkomakın adı ilə bağlı-



dır. Soyuq müharibə zamanında onlar çox maraqlı fikirləri ilə gündəmi zəbt etdilər. Qardaşlar insanların bir-biri ilə salamlaşmağını təklif etdilər. Dünyanın 180 ölkəsində bu fikir dəstəkləndi və həmin vaxtdan bəri dünyada yaşayan bütün peşə sahibləri, böyük siyasi xadimlər, iş adamları, tanınmış şəxslər bu günü qeyd edirlər.

Elə ölkələr var ki, onlarda adi üsulla yanaşı, öz tarixi keçmişlərinə aid olan salamlaşma qaydaları da var. Onlardan bəzilərini təqdim edirik:

"Salam"sözü özü ərəb sözüdür və "sülh olsun" mənasını verir. Bu gün ərəb ölkələrində qadınların əlini sıxaraq görüşmək qəti qadağandır. Lakin tarixdə elə zamanlar olub ki, ərəb ölkələrində kişilərin belə əl sıxması qadağan olub. Yalnız Məhəmməd Peyğəmbərin (s.ə.s) dönəmində əllə görüşmək bir çox əlamətə çevrilib. Ərəblər əllərini sinələrinin üstünə qoyub salam verirlər. Hal-əhval və ya iş haqqında sorğu-sual sonra yenidən təkrarlana bilər. Həmçinin kənar şəxslərin qadınlara müraciət etməsi və ya görüş üçün əl uzatması ədəbsizlik sayılır.

Almanlar "soyuq" bir millət kimi tanınırlar. Onlar da qaydaya görə saat 12-yə qədər "Sabahın xeyir" 12-17 qədər "Günortan xeyir", sonra isə "Axşamın xeyir"deyirlər, ancaq bəzən adi salamla kifayətlənirlər. Almanlar həddindən artıq mehriban və sevgi hissi ilə dolu insanlara pis baxırlar.

Afrikanın bəzi tayfalarında insanlar üzbəüz gəldikləri zaman tüpürürlər, bu onlarda ədəbsizlik yox, hörmət göstəricisi sayılır.

Tibetlilərdə görüşmək çox qəribə vəziyyətdə baş verir. Onlar salamlaşan zaman sağ əllə papaqlarını çıxarır, sol əllərini isə qulağın arxasına qoyub dillərini göstərirlər. Bu salamlaşma növünün qədim tarixə gedən çox maraqlı bir kökləri var. Qədim miflərə görə, insanlara qarşı çox zalım və qəddar kral Lanq Darmanın dili etdiyi pisliklərdən artıq qaralmışdı və insanlar bir-birilərinə dil göstərərkən nə dərəcədə xoşniyyətli və təmiz fikirli olduqlarını sübut edirlər.

Maraqlı bir salamlaşma növündən birini də Konqoda müşahidə etmək mümkündür. Bu ölkədə yaşayan insanlar salamlaşarkən əllərini bir- birinə doğru uzadıb, sonra onlara üfürməyə başlayırlar.

Digər qəribə bir salamlaşma növü ilə Keniyada rastlaşmaq olar. Onlar bir-biri ilə qarşılaşıb salamlaşarkən mütləq tüpürməlidilər. Belə salamlaşmanın mənası odur ki, insanlar bir-birinə qarşı olan hörməti göstərmiş olurlar.

Filippinlilərdə də, qəribə bir ənənə var. Onlar salamlaşarkən yaşca balaca insan daha yaşlı, təcrübəli və müdrik olan birinin əlini qaldırıb alnına qoyur. Bu hərəkəti ilə ona qarşı olan hörmətini göstərmiş olur.

Malayziyalılar "Hara gedirsən", yəhudilər "Sizə sülh olsun", farslar "Şən ol", qrenlandiyalılar isə "Yaxşı havadır" sözlərini söyləyərək salamlaşırlar. Afrikada yaşayan zuluslar isə "Mən səni görürəm" sözlərini qışqıraraq bir-birlərini salamlayırlar. Cənubi Afrikada yaşayan tayfalar isə görüşəndə əl çalırlar.

Avropa ölkələrinin əksəriyyətində, həmçinin Amerikada salamlaşarkən "işləriniz necədir" və yaxud "necəsən"-deyə soruşurlar. Bu sualların cavabı "yaxşı" və ya "normal" olmalıdır, "pis" demək onlarda ədəbsizlik sayılır.

Fransada qeyri-rəsmi şəraitdə, hətta az tanış olan insanlar belə salamlaşarkən və ya sağollaşarkən öpüşürlər və yanaqları ilə toxunaraq havaya birdən beşə qədər sayaraq öpüş göndərirlər. İtaliya, İspaniya, Belçikada iki yanaqdan öpmək artıq adət şəklini alıb. Rusiyada insan-



lar rastlaşanda bir-birinə sağlamlıq, yüksək əhval-ruhiyyə arzu edirlər. Ruslar da avropalılar və amerikalılar kimi salamlaşarkən dost jesti olaraq əl verirlər. Əl sıxmanın da bir mənası var. Sağ əli uzatmaq yəni "silahım yoxdur, niyyətim safdır" deməkdir.

Çində və Yaponiyada insanlar görüşəndə bir-birilərinin qarşısında baş əyməlidirlər, ancaq onlar əllərini bədən boyunca uzadırlar. Baş əymək bir hörmət göstəricisi kimi sayılır, bu hərəkət daha çox cavan nəslin yaşlılara qarşı olan gözəl bir jestidir.

Hindistanda salamlaşma qaydasına görə hörmət əlaməti olaraq əllərini bərabərləşdirib sinəyə tuturlar. Bu da "sənə qarşı böyük bir hörmətim var" anlamına gəlir, ərəblərdə də buna oxşar bir salamlaşma növü var. Sadəcə hindistanlılardan fərqli olaraq əllərini sinələrinin üstünə qoyurlar.

Latın-amerikalılar salamlaşarkən mütləq qucaqlaşmalıdırlar, soyuqdan donan laplandiyalılar bir-birinə burunlarını sürtürlər və beləliklə qəlblərini isidir və həyatlarına müsbət enerji qatmış olurlar. Yeni Zelandiyadada oxşar bir salamlaşma müşahidə etmək mümkündür. Zelandiyalılar hesab edirlər ki, burunlarını sürtərkən nəfəslərini belə birləşdirirlər və bu hərəkətləri Allaha belə xoş gedir.

# "Nar" AzTU tələbələri üçün karyera inkişafı təlimi keçdi

Sərfəli təklifləri ilə seçilən "Nar" mobil operatoru ölkədə peşəkar kadr hazırlığı məqsədilə növbəti layihəsini həyata keçirib. On ildən çoxdur ki, davam edən tərəfdaşlıq çərçivəsində "Nar" Azərbaycan Texniki Universitetinin (AzTU) tələbələri üçün karyera planlaşdırılması təlimi təşkil edib.

Təlim zamanı AzTU tələbələri ilə birgə mobil rabitə sektorunda karyera imkanları, gənc kadrlar üçün əsas tələblər və sürətlə dəyişən rəqəmsal mühitə uyğunlaşma yolları müzakirə olunub. Proqram çərçivəsində iştirakçılar tərcümeyi-hal (CV) tərtibatı, motivasiya məktublarının hazırlanması və işgüzar müsahibələr üzrə biliklər əldə ediblər. Həmçinin "Nar" nümayəndələri iş mühitində effektiv ünsiyyət, nəticəyə fokuslanma, məsuliyyətli yanaşma və komanda ilə işləmək kimi peşəkar keyfiyyətlərin əhəmiyyəti barədə tələbələrlə öz təcrübələrini bölüşüblər.




İnteraktiv formatda təşkil olunan təlimdə tələbələrin telekommunikasiya sahəsinə, mobil operatorun daxili proseslərinə və təcrübə proqramlarına dair sualları cavablandırılıb. Sonda iştirakçılara təlimdə iştiraklarını təsdiq edən "Nar" tərəfindən sertifikatlar təqdim edilib. Təlim zamanı xüsusi fərqlənən tələbələr "Nar" tərəfindən dəyərli hədiyyələrlə mükafatlandırılıb.

Hazırda 2,2 milyon abunəçiyə xidmət göstərən "Nar" son 6 il ərzində Müştəri Loyallığı İndeksi göstəricisinə əsasən Azərbaycanda lider mobil operatordur. Bu uğurun arxasında "Nar"ın ardıcıl şəkildə həyata keçirdiyi müştəriyönümlü strategiya dayanır. Mobil operator istifadəçilərinə sərfəli qiymət qarşılığında dayanıqlı və yüksəkkeyfiyyətli rabitə xidmətləri, müxtəlif internet paketləri və müasir eSim texnologiyası təqdim edir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66

Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4997**
**Sifariş: 2333**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova